www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 oktyabr 2015-ci il Bazar ertəsi № 237 (6265) Qiymәti 40 qәpik

Xəbər

## Şəmkirdə iki uşaq anasını elektrik vurdu

yazısı səh.14-də

Gündəm

### Müsavat paytaxtda seçki mitinqi keçirdi



Partiya seçki prosesini dayandırılmasını və 4 ay sonraya yeni seçki təyin olunmasını tələb elədi...

yazısı səh.3-də

### 1 noyabrdan sonra manatı nə gözləyir? - son proqnoz

yazısı səh.12-də

### Qərb Qarabağ problemini unudub - iddia, yoxsa reallıq?

Türk politoloq: "Qarabağ münaqişəsi - gec partlayan bombadır..."

yazısı səh.11-də

### Təbliğat kampaniyasında son həftə başladı

yazısı səh.4-də

### Həbsxanada İlqar Məmmədovun dişi sındırılıb

yazısı səh.4-də

### Gürcüstanda adam oğurlayan azərbaycanlılar haqda yeni məlumatlar var

yazısı səh.12-də

### BTRİB-in rəis müavini "MTN işi" üzrə yoxlanılır - həbsi gözlənir

yazısı səh.5-də

### Elza Seyidcahanı məsciddə döymək istədilər

yazısı səh.14-də

*ABŞ nəşri:*

### "Erməni ordusunda itkilərin sayı beş dəfə artıb"

yazısı səh.11-də

*Hüquqşünas:*

### "Valideynin siyasi fəaliyyətinə görə övladdan imtina hüququ yoxdur"

yazısı səh.12-də

### Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində büdcə yeyintisi - yeni faktlar...

yazısı səh.13-də

## "MTN işi" daha iki nazirliyi silkələyir

# MAHMUDOVUN AFRİKADAKI DAŞ-QAŞ BİZNESİ: İŞƏ DİPLOMATIN DA ADI QARIŞDI

İstintaqa cəlb edilən və barəsində həbs xəbəri yayılan Vergilər Nazirliyinin idarə rəisi Vidadi Məmmədovla sabiq naziri hansı maraqlar birləşdirirmiş - Fazil Məmmədovun da başı dərddə; MTN-in brilyant biznesinin sensasion təfərrüatları; yeni nazir elə Mədət Quliyev ola bilər; amma daha bir namizəd də var...




yazısı səh.5-də

## Bakı-Qərb münasibətləri bir həftə sonra: strategiyalar dəyişəcəkmi?

Parlament seçkiləri tərəflərin "qırmızı xətt"ə nə dərəcədə yaxınlaşdığını göstərəcək; Rusiyanın bölgədə sürətlə fəallaşması, Gürcüstanın Moskvaya şübhəli reveransları demokratiya paytaxtlarını yeni və çevik qərarlar vermək zorunda qoyur...

yazısı səh.8-də



*Prezident İlham Əliyev:*

### "Onlar Azərbaycana xəyanət edirlər..."

yazısı səh.2-də



*Pənah Hüseyn:*

### "Sabirabadlılar daha bir tarix yazacaqlar"

yazısı səh.6-da



*İlham Şaban:*

### "2016-cı ildə Azərbaycanı ürəkaçan mənzərə gözləmir"

yazısı səh.10-da

# 26 oktyabr 2015

YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015




# Nazirlik Gədəbəydə sahibkarlara divan tutulmasına "göz yumur"

**Azərbaycanda sahibkarların incidilməsi adi bir hala çevrilib. Qanunların işlək olmaması, məmurların hətta prezidentin fərmanlarına məhəl qoymayaraq sahibkarlara qarşı qanunsuzluqlar etməsi, aylıq xərac toplanılması geniş yayılıb.**

2002-ci il sentyabrın 28-də mərhum prezident Heydər Əliyev "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqda" fərman imzalayıb. Bu günə qədər qüvvədə olan həmin fərmanda sahibkarlıq subyektlərində əsassız yoxlamaların aparılması qadağan edilib, sahibkarlığın inkişafına olan əngəllərin aradan qaldırılması, qarşısının alınması üçün tədbirlərin görülməsi qeyd edilir və sənədin icrası İqtisadi İnkişaf Nazirliyinə (hazırda İqtisadiyyat və Sənaye Nazirliyi) tapşırılıb. Mətbuatda hər gün sahibkarların incidilməsi ilə bağlı dərc olunur. Sahibkarlar ən müxtəlif ranqlı məmurların onları incitməsindən, fəaliyyətlərini iflic etməsindən şikayətlənirlər.

Məsələn, Gədəbəydən olan bir qrup sahibkar son ayda Prezident Administrasiyasının qarşısında 2 dəfə etiraz aksiyası keçiriblər. Onlar Gədəbəy İcra Hakimiyyətinin başçısı Ramiz Yedigarovun rayonda yaratdığı xaosa son qoyulmasını istəyiblər. Prezidentin imzaladığı fərmandan belə anlaşılır ki, belə müdaxilələrin qarşısının alınmasına cavabdeh olan qurumlardan biri də İqtisadiyyat və Sənaye Nazirliyidir. Maraqlıdır, görəsən bu qurumda çalışanlar Gədəbəydə sahibkarlara qarşı baş verənlərdən xəbərdardırlarmı? Sahibkarları çağırıb dinləyiblərmi? İcra başçısının əməllərini araşdırmaq niyyətləri varmı?

Prezidentin imzaladığı fərmana əsasən Gədəbəyə yollanıb sahibkarların üzləşdiyi qanunsuzluqları təsbit edib prezidentə məruzə etmək haqda düşünürlərmi?

Bu və digər suallara aydınlıq gətirmək üçün İSN-ə sorğu ilə müraciət etmişik. Sorğuda il ərzində sahibkarlıq subyektlərinə müdaxilələrlə bağlı aparılan araşdırmalar, onların nəticəsi haqda məlumatların açıqlanmasını da xahiş etmişik.

Xatırladaq ki, Gədəbəy rayon icra başçısı Ramiz Yedigarov Bakıda keçirilən aksiyada etirazını bildirən sahibkar Rasim Hərriyevi və Oqtay Əliyevi 15 sutkalığa həbs etdirib. Digər sahibkarlara da Bakıya şikayətə gedəcəkləri halda şərlənərək həbs ediləcəkləri haqda xəbərdarlıq edilib.

❑ E.MƏMMƏDƏLİYEV

# Bakıda iki ailənin üzvləri bir-birlərini döydülər

**Bakının mərkəzində iki ailənin üzvləri küçənin ortasında dava salıblar. Musavat.com-un əldə etdiyi məlumata görə, hadisə Nərimanov rayonu ərazisində, Təbriz küçəsində baş verib. Günorta saatlarında Bakı sakini 71 yaşlı Sevindik Orucov və oğlu 47 yaşlı Coşqun ilə 35 yaşlı Anar İbrahimov və bacısı 24 yaşlı Rabiyə dava edib. Tərəflər bir-birlərini döyüblər.**

Ailələr arasındakı dava ətrafdakılar və polisin müdaxiləsi ilə dayandırılıb.

❑ İlkin MURADOV

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# "Onlar Azərbaycana xəyanət edirlər"

## Prezident İlham Əliyev sahibkarlara süni əngəllər yaradanlara xəbərdarlıq elədi

**"Bu gün Azərbaycanda biznes mühitinin yaxşılaşması üçün bütün şərait yaradılır. Siyasi iradə var, qanunvericilikdə düzəlişlər edilib, yeni qaydalar tətbiq olunur və əlbəttə ki, ictimai nəzarət daha da güclü olmalıdır".**



Bu fikirləri prezident İlham Əliyev Sumqayıtda "Azərikimya" İstehsalat Birliyinin etilen-polietilen zavodunda yeni qurğuların işə salınması mərasimində bildirib. Dövlət başçısı bəzi hallarda sahibkarlara qarşı ədalətsizliklərin göstərildiyini, onların işinə müdaxilələr olduğunu, onlara qarşı əsassız tələblər irəli sürüldüyünü, qanunsuz ödəmələr tələb olunduğunu bildirib və əlavə edib ki, bütün bunlara son qoyulur və son qoyulacaq. Bütün hallarda həm inzibati tədbirlər, həm cəza tədbirləri davam etdiriləcək.

Prezident vurğulayıb ki, bu gün biznesə mane olmaq istəyən şəxslər Azərbaycana xəyanət edirlər: "Çünki ölkəmizin uğurlu inkişafı biznesin inkişafından asılıdır. Dövlət siyasəti, prezidentin siyasi iradəsi var. Belə olan halda dövlət qurumları burada maneçilik törətməməlidirlər, əskinə, kömək etməlidirlər, şərait, imkan yaratmalıdırlar ki, biznes inkişaf etsin".

"Son vaxtlar qəbul edilmiş qərarlar, qanunlar, verilmiş sərəncamlar bu məqsədi güdür ki, sahibkarlara heç kim mane olmasın, süni əngəllər aradan götürülsün, sahibkarlar maksimum dərəcədə sərbəst, rahat şəraitdə işləsinlər, ölkəmizə vəsait qoysunlar, iş yerləri yaratsınlar və Azərbaycanda biznes mühiti daha da yaxşılaşsın" - deyə dövlət başçısı vurğulayıb.



# Bakının ən məşhur binalarından biri yerlə yeksan edildi

**Bir vaxtlar Bakının ən məşhur binalarından biri dünən yerlə yeksan edilib. Criminal.az məlumat verir ki, Səbayel rayonu, Məmməd Əmin Rəsulzadə küçəsində yerləşən "Azərbaycan" kinoteatrının binasının söküntüsü başa çatmaq üzrədir.**

Binanın bir tərəfi və içərisi tamamilə sökülüb, iki yan divarları qalıb. Ərazidə ağır texnika işləyir.

Xatırladaq ki, bina hasara alınanda Səbayel Rayon İcra Hakimiyyətindən həmin tikilinin əsaslı təmir olunduğu bildirilmişdi.

# Daha bir məhkumu vəhşicəsinə döydülər

## Məhbəsdən gələn məktubda zorakının adı açıqlanır



**Penitensiar Xidmətin 15 saylı Cəzaçəkmə Müəssisəsində məhkum Bahadır Əsgərov vəhşicəsinə döyülüb. Bu haqda "Yeni Müsavat"a onun anası Gülyafşan Əsgərova məlumat verib.**

"Oğlumu Rəcəb adlı nəzarətçi köməkçisi döyüb. Hazırda Bahadır Məhkumların Müalicə Müəssisəsindədir. Yanına getdim, danışa bilmirdi. Ekspertiza rəy verib ki, döyülmə nəticəsində ciyəri partlayıb, mədəsi qan bağlayıb, böyrəkləri zədələnib. Hazırda pis durumdadır. Oktyabrın 17-də yanında oldum. O ayağa qalxıb gələ bilmədi. Dərdimizi kimə deyək? bilmirik".

Məhkumun anası deyir ki, oğlunun döyülməsinin səbəbi ilə maraqlanıb: "Oğlum 71-ci ildəndir, 2 il əvvəl Yasamalda tutulub və 15-ci "kolon"a göndərilib. 2 il ərzində onun saxlama şəraitindən şikayəti olmayıb. Özü də sağlamaz xəstədir. Mənə dedilər ki, avqust ayının sonlarında orada Bahadırın bədənində səpkilər əmələ gəlib, buna görə də qaşınıb. Rəcəb adlı nəzarətçi köməkçisi də ona deyib ki, özünü qaşıma. Bunun üstündə mübahisə düşüb. Rəcəb Bahadırı "Vaxt" deyilən yerə aparıb və orada döyüb. Növbəti gün onu yenə də ora salıb döyüb. Oğlum ölüm ayağındadır. Mənimlə görüşəndə iki kəlmə zülmlə danışdı. Dedi ki, məni Rəcəb döyüb".

G.Əsgərova oğlunun döyülməsi ilə bağlı Ombudsmanlığa, Penitensiar Xidmətə və Baş Prokurorluğa müraciət edərək məsələnin araşdırılmasını, oğlunu döyən Rəcəb adlı nəzarətçi köməkçisinin müəyyən olunaraq istintaqa cəlb edilməsini tələb edir.

❑ E.MƏMMƏDƏLİYEV

# 48 yaşlı qadın bıçaqlandı

**Bakıda gənc oğlanla qadın arasında düşən mübahisənin sonu qanla bitib. Musavat.com-un əldə etdiyi məlumata görə, hadisə Səbayel rayonu ərazisində baş verib. Əvvəlcə qonşular arasında mübahisə yaranıb. Mübahisə onlardan birinin bıçaqlanması ilə nəticələnib.**

Məlumata görə, axşam saatlarında Badamdar qəsəbəsində 1990-cı il təvəllüdlü Elgün Tağıyev qonşusu, 1967-ci il təvəllüdlü Gülbəniz Tağıyeva ilə mübahisə edib. 25 yaşlı gənc mübahisə zamanı 48 yaşlı qadına bıçaq zərbəsi endirib. Mübahisənin hansı səbəbdən yarandığı məlum deyil.

Bıçaqlanan qadın xəstəxanaya yerləşdirilib. Daha sonra hadisə ilə bağlı rayon polisinə məlumat verilib.

❑ İlkin Muradov

# Bakıda 25 yaşlı gənc bıçaqlandı

**Paytaxtda gecə saatlarında bıçaqlanma hadisəsi baş verib. Bıçaqlanan şəxs xəstəxanaya yerləşdirilib. Cinayəti törədən şəxs hadisə yerindən qaçıb. Musavat.com xəbər verir ki, hadisə Səbayel rayonu ərazisində baş verib.**

20-ci sahə, Ş.Allahverdiyev küçəsində 25 yaşlı Səbuhi Həsənov bıçaqlanıb. S.Həsənov yaralı vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Ş.Allahverdiyevi bıçaqlayan şəxs polis əməkdaşları tərəfindən axtarılır.

❑ İ.MURADOV

# Maşını əlindən alınan sürücü polisi hədələdi

**Bakıda maşını yol polisi tərəfindən saxlanılan paytaxt sakini aranı qarışdırıb. Nəticədə polis əməkdaşları onun özünü də həbs etmək məcburiyyətində qalıblar.**

Musavat.com xəbər verir ki, oktyabrın 17-də Əmircan qəsəbəsində Mehman Rzayevin idarə etdiyi 57 BT 316 dövlət nömrə nişanlı "VAZ 2104" markalı avtomobil Dövlət Yol Polisinin əməkdaşları tərəfindən saxlanılıb. Sürücünün yanında avtomobilin sürücüsü 1989-cu il təvəllüdlü Rüfət Əliqulu oğlu Qarayev də olub.

DYP-nin polis mayoru Emin Məmmədov M.Rzayevi qəza vəziyyəti yaratdığı və piyadaların üzərinə su sıçratdığı üçün saxlayıb. Bu zaman məlum olub ki, M.Rzayevin sürücülük hüququ da yoxdur. Maşın Rüfət Quliyevə məxsusdur. DYP əməkdaşları maşını cərimə meydançasına aparıblar.

Həmin gün saat 17:25 radələrində M.Razayev Daxili İşlər Nazirliyinin 102 "qaynar xətti"nə zəng edərək deyib ki, əgər maşını cərimə meydançasından çıxarmasalar E.Məmmədovun maşınını yandıracaq, uşaqlarını isə oğurlayacaq.

Oktyabrın 19-da DYP-nin cərimə meydançasına gələn M.Rzayev orada polis əməkdaşları ilə mübahisə edib, onları təhqir edib. M.Razayev bu hərəkətlərindən sonra saxlanılıb. Materiallar toplanaraq rayon prokurorluğuna göndərilib.

❑ İLKİN

YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015





# Müsavat paytaxtda seçki mitinqi keçirdi

## Partiya seçki prosesinin dayandırılmasını və 4 ay sonraya yeni seçki təyin olunmasını tələb elədi...

**Dünən Müsavat Partiyası paytaxtdakı "Məhsul" stadionunda seçki təbliğat kampaniyası çərçivəsində mitinq keçirdi. Partiyanın himni ilə başlayan tədbirdə təşkilatdan parlament seçkilərinə qatılan namizədlər də iştirak edirdi. Bakı Şəhər İcra Hakimiyyətinin razılıq verdiyi mitinq həm də Müsavatın 15 saylı Yasamal seçki dairəsindən deputatlığa namizədi, sabiq başqan və Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbərin seçiciləri ilə görüşü hesab edilirdi.**

Sabiq başqan noyabr seçkilərinin saxtalaşdırılma ehtimalının böyük olduğunu vurğulayaraq, seçkidən sonrakı dörd ay ərzində yeni seçki tələb edəcəklərini vurğuladı: "Biz azad seçki tələb edirik!".

A.Hacılı qeyd elədi ki, Azərbaycana daxil olan yüz milyarddan artıq neft gəlirləri Azərbaycan xalqının mənafelərinə xidmət etməyib. "Biz ən çətin dövrlərdə də mübarizəmizi davam etdiririk". O, ölkədəki siyasi məhbuslarla bağlı vəziyyətdən, qondarma ittihamlarla həbs edilən onlarla insanın aqibətindən danışdı. Həmçinin, vurğuladı ki, demokratik kəsim ölkənin nicatına nail olacaq. Daha sonra o bildirdi k, seçkidən imtina məsələsi də aktualdır: "Bu, oktyabrın 28-də son dəfə müzakirə olunacaq.

Müsavat başqanının müavini Səxavət Soltanlı ölkədəki siyasi situasiyanın çətinliyini vurğulayıb və ağır şərtlər daxilində belə, hakimiyyətə qarşı gəldiklərini qeyd edib.

Müsavatın namizədlərindən Dilşad Nağıyeva qeyd elədi ki, seçicilər ədalətli seçkilər keçiriləcəyinə, demokratik qüvvələrin demokratik yolla hakimiyyətə gələcəyinə inanmırlar: "Amma biz inamlıyıq. Seçicilərlə görüşəndə bir daha sübut etdik ki, biz varıq, biz mübarizədəyik. Və sonadək mübarizəni davam etdirəcəyik, sonadək gedəcəyik. Biz azadlığa layiqik, biz azad olacağıq".

Salyandan namizəd olan Valeh Hümbətoğlu da vəziyyətin çətinliyini vurğulayaraq, əlavə elədi ki, bu şəraitdə də Müsavat mübarizəni davam etdirir. O, mübarizədən qorxmamağın vacibliyini vurğuladı.

### İsa Qəmbər: "Bu rejim hər birimizin həyatından 22 ili oğurlayıb"



### Arif Hacılı: "Seçkidən imtina məsələsi gündəmdədir"



Müsavat Divanının üzvü Nüşabə Sadıxlı isə vurğuladı ki, vətəndaşlar hakimiyyətdən və sosial durumlarından narazı olsalar da, bunu deməyə çəkinirlər.

Namizədlərdən Xasay Səfəroğlu isə bildirdi ki, hakimiyyətin güclü olmasının və durumun düzəlməməsinin səbəbi vətəndaş qərarsızlığıdır: "Bu gün hakimiyyətin güclü görünməsinin tək səbəbi vətəndaş zəifliyidir. Görüş keçirərkən görürük ki, insanların tək narahatlığı seçkilərin nəticələrindəndir. Hakimiyyətə inam yoxdur. Amma biz aktiv olmalıyıq".

Deputatlığa namizəd İsgəndər Həmidov isə İsa Qəmbərin seçicilərinə müraciət edərək, onları Müsavatın namizədinə səs verməyə çağırdı.

Ardınca İsa Qəmbər qeyd elədi ki, son günlər ölkədə önəmli bir hadisə baş verib və davam edir: "Milli təhlükəsizlik nazirinin hansı oyunlardan çıxdığı rəsmi şəkildə etiraf olunur. İlham Əliyev bilirdi ki, Milli Təhlükəsizlik Nazirliyi özünün bilavasitə funksiyaları ilə məşğul olmaq əvəzinə xalqa qarşı, demokratik düşərgəyə qarşı fəaliyyət göstərir. Amma elə danışır ki, guya indi bilir ki, bu nazirlik milli təhlükəsizliklə məşğul olmaq əvəzinə, biznes strukturuna çevrilib. İlham Əliyev indi bilib ki, bu nazirlik Azərbaycanda iş adamlarına divan tuturmuş, şantaj edirmiş, adamların sərvətlərini, var-yoxlarını əlindən alırmış. İndi məlum olur ki, Milli Təhlükəsizlik Nazirliyi deyil, milli təhlükə nazirliyidir, Azərbaycan dövlətinə təhlükə nazirliyidir. Söhbət təkcə bu nazirlikdən getmir, bütün nazirliklər bu gündədir. Bu rejim hər birimizin həyatından 22 ili oğurlayıb. Təkcə nefti yox, həyatımızı oğurlayırlar. Əliyev rejimi oğurlayıb. Oğru rejim, avtoritar rejim həyatımızı oğurlayır. Bu rejimin sonu gəlməkdədir. Biz bu rejimin getməsi üçün əlimizdən gələni etmişik. Müsavat Partiyası olaraq, gerçək demokratik qüvvələr əlindən gələni edib. Və etməkdə davam edirik".

Sonda mitinqin qətnaməsi səsləndirildi. Qətnamədə bildirilir: "Ölkədə azad və ədalətli seçkilərin keçirilməsi üçün seçkiqabağı demokratik şərait yoxdur. Seçki qanunvericiliyi belə seçkilərin keçirilməsinə imkan vermir. Seçki komissiyaları tam olaraq hakimiyyətin nəzarəti altındadır. Bərabərhüquqlu təbliğat imkanları mövcud deyil, xüsusilə pulsuz efir vaxtının verilməməsi bu imkanları tamamilə aradan qaldırıb. Yüzədək siyasi məhbusun olması, seçki kampaniyası dövründə də repressiyaların davam etməsi, söz və ifadə azadlığına qarşı davamlı basqılar, saxtakarlıqların və qanun pozuntularının vüsət alması vəziyyəti bir qədər də ağırlaşdırır.

Qeyd edilənləri nəzərə alaraq Müsavat Partiyasının görüş-mitinqi adından tələb edirik:

Siyasi məhbuslar azad edilsin! Azad və ədalətli seçkilərin keçirilməsi üçün normal mühit yaradılsın! Seçki qanunvericiliyində əsaslı dəyişikliklər edilsin, ilk növbədə seçki komissiyalarının müstəqilliyi təmin edilsin! Bərabərhüquqlu təbliğat imkanlarının təmin edilməsi, xüsusilə ictimai diskussiyaların təşkil edilməsi məqsədi ilə pulsuz efir vaxtı ayrılsın! Seçki kampaniyası dövründə Müsavat Partiyasından olan və digər namizədlərin imzatoplama, eyni zamanda, təbliğat kampaniyasına qeyri-qanuni müdaxilə edən yerli hakimiyyət və icra orqanlarının nümayəndələri barədə ciddi tədbir görülsün! Bütün bu və digər zəruri tədbirlərin görülməsi üçün parlament seçkiləri dayandırılaraq dörd ay sonraya təyin edilsin!".

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**











YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015

# Həbsxanada İlqar Məmmədovun dişi sındırılıb

## REAL sədri və Tofiq Yaqublu ailəsi ilə görüşüb; Nemət Pənahlının Qobustandakı cəza müddəti bitir; əməliyyat olunan müsavatçı gəncin səhhəti yaxşılaşır; Xədicə İsmayılın məhkəməsi olacaq...

**REAL hərəkatının həbsdə olan sədri İlqar Məmmədovun günlər öncə saxlanıldığı cəzaçəkmə müəssisəsində döyülməsi barədə xəbər vermişdik. Buna səbəb "kars"a salınan məhbus barəsində mətbuata xəbər verməsi olmuşdu.**

REAL sədri üzləşdiyi fiziki işgəncələrdən sonra oktyabrın 25-də ilk dəfə ailəsi ilə görüşüb. Bu barədə musavat.com-a İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova məlumat verib: "Görüş normal keçdi. Nəhayət İlqarı görə bildim. Özünü pis hiss eləmir. Döyülmə zamanı bir dişi sındırılıb. Başındakı ağrılar artıq keçib. Ayın 21-də hadisədən 5 gün sonra həkim müayinəsindən keçib. Ağrıları getdikcə çəkilir. Döyülməsinə səbəb olaraq Renat adlı məhbusun "kars"a salınması ilə bağlı məlumatın guya İlqar tərəfindən mətbuata çatdırılmasını bəhanə gətirmişdilər. İlqara demişdilər ki, sənə görə daim bizə yoxlama gəlir, başımızı ağrıdırlar, bizi problemə salırsan. Hadisədən sonra Ədliyyə Nazirliyi və Ombudsmandan nümayəndələri həbsxanaya baş çəkiblər. Bizi əmin etdilər ki, bundan sonra heç bir problem olmayacaq".



İlqar Məmmədov

V.Məmmədova REAL sədrinə qoyulan telefon qadağasının oktyabrın 24-dən etibarən bərpa edildiyini bildirdi: "Sentyabrın 7-dən etibarən telefon danışığına qadağa qoymuşdular. Heç bir səbəb olmadan. Oktyabrın 24-də artıq qadağaya son qoyulub. Özü zəng etmişdi. Bizi əmin edirlər ki, bundan sonra heç bir problem olmayacaq. Gözləyək görək axırı necə olacaq. İlqarın döyülməsi ilə bağlı vəkil aidiyyəti orqanlara müraciət ünvanlayıb. Avropadan gələn qətnamələrlə bağlı İlqarın fikirləri müsbətdir. Haqsızlıq yerdə qalmamalıdır. Əfvlə bağlı danışmadıq".

Həbsxanada əməliyyat olunan müsavatçı gənc Sirac Kərimlinin səhhəti yaxşılaşıb. Gənc məhbusun atası Raqif Kərimli son durumla bağlı bunları dedi: "Vəziyyəti yaxşıdır. Artıq palataya köçürüblər. Elə bir narazılığı yoxdur. Fərəc də telefonda danışır. Vəziyyəti normaldır".

Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu oktyabrın 25-də atası ilə görüşüb: "Atamın səhhəti normaldır. Hər kəsə salam söylədi. Fərəc Kərimli ilə birlikdə Müsavatdan seçkiləri boykot etməyi gözləyirlər. Bu qərarın qəbul edilməsində daha israrlıdırlar".

Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin qızı Nərmin Kamilsoy atasının səhhətinin yaxşı olmadığını, müalicəyə ehtiyacının olduğunu söylədi: "Heç bir yenilik yoxdur. Sonuncu dəfə bir həftə öncə görüşdük. Əhvalı yaxşı idi. Dostlara salam söylədi. Telefonla danışır. Səhhəti əvvəlki kimidir. Müalicə ehtiyacı olsa da, müalicə olunmur".

Oktyabrın 29-da araşdırmaçı jurnalist Xədicə İsmayılın növbəti apelyasiya məhkəməsi olacaq. Vəkil Fariz Namazlı son məhkəmə iclasının ola biləcəyini vurğuladı: "Ayın 29-da məhkəmədir. Ehtimal edirik ki, proses yekunlaşacaq. Çünki apelyasiya şikayətinin ilk iclasında məhkəmə istintaqı olmadan prosesin aparılması qərara alınıb. Sübutlar araşdırılmayacaq, şahidlər ifadə verməyəcəklər. Bu baxımdan çox güman ki, həmin gün proses yekunlaşacaq. Vəkilləri olaraq çıxışlarımızı edəcəyik. Məhkəmə qərarından hər hansı bir gözləntimiz yoxdur. Çünki indiyə qədər belə siyasi proseslərdə Apelyasiya Məhkəməsinin ədalətli qərar çıxardığının şahidi olmamışıq. Çox güman ki, bu da elə olacaq. Ağır Cinayətlər Məhkəməsinin hökmü qüvvədə saxlanılacaq. Xədicə İsmayılovanın ümumi vəziyyəti yaxşıdır. Möhkəm olduğunu bildirdi, dostlara salamlarını çatdırdı".

F.Namazlı eyni zamanda vəkili olduğu İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovla bağlı da danışdı: "Rəsul bəyin kasasiya şikayətini təqdim etmişik. Yəqin ki, 2-3 ay ərzində baxılar".

Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının həyat yoldaşı Həcər Pənahlı fevral ayında onun Qobustandakı cəza müddətinin başa çatacağını bildirdi: "Yaxınlarda Nemətlə bağlı müəyyən narazılıq yaranmışdı. Yanına başqa məhbus da gətirmişdilər. Müəyyən narazılıqdan sonra çıxardılar. Yenə də tək qalır. Həftədə üç dəfə telefonla danışırıq. Səhhəti əvvəlki kimi yaxşı deyil. Fevralın əvvəllərində Qobustandakı cəza müddəti bitir. Başqa ümumi yerə köçürəcəklər".

NİDA-çı gənc Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova son durumla bağlı bunları dedi: "Heç bir şikayəti yoxdur. Sirac Kərimli ilə bağlı çox narahat olublar. Ona görə qorxublar. Başqa ümumi vəziyyəti yaxşıdır".

❑ Cavanşir ABBASLI



# General Vidadi Məmmədov da saxlanıldı

**MTN-in kiçik və orta sahibkarlara təzyiq göstərməkdə ittiham olunaraq məsuliyyətə cəlb edilən yüksək rütbəli əməkdaşlarının həbsi dalğası, görünür, artıq başqa güc strukturlarına da çatır.**

Virtualaz.org saytının əldə etdiyi məlumata görə, Vergilər Nazirliyinin Vergi Cinayətlərinin Təhqiqi Departamentinin rəisi, general Vidadi Məmmədov vəzifəsindən azad olunaraq, saxlanılıb.

General V.Məmmədov MTN-in sabiq rəhbəri Eldar Mahmudovun ən yaxın adamlarından idi. O, faktiki olaraq MTN-in Vergilər Nazirliyindəki nümayəndəsi sayılırdı.

Məlumata görə, Vidadi Məmmədovun MTN-də işləyən oğlu və Vergilər Nazirliyində çalışan digər yaxın qohumları da artıq işdən çıxarılıblar.

# Təbliğat kampaniyasında son həftə başladı

## Namizədlər kütləvi şəkildə iddialarından niyə geri çəkilir?

**Noyabrın 1-də keçiriləcək parlament seçkilərinə sayılı günlər qaldı. Oktyabrın 31-i səhər saat 8:00-da bütün ölkə ərazisində seçkilərlə bağlı kampaniyaya son veriləcək.**

Təbliğat dönəmindən keçən 17 günü dəyərləndirsək, belə qənaətə gəlmək olar ki, əvvəlki seçkilərdən də sönük bir seçki mühiti müşahidə edirik. Seçki prosesində iştirak edən müxalif qurumların əsas narazılıqlarından biri qanunsuzluqları ilə bağlıdır. Çoxlu sayda müxalifət namizədlərinin qeydiyyatına problemlər yaradıldı. Təsadüfi deyil ki, seçkilərə az müddət vaxt qalmasına baxmayaraq, hələ də xeyli sayda qeydiyyata alınmayan iddiaçının şikayətləri məhkəmə mərhələsindədir.



Yarım aylıq təşviqat dönəmində əsas sual yaradan məsələlərdən biri də, kütləvi şəkildə namizədlərin iddialarından geri çəkilmələri oldu. İndiyə qədər 600-dən çox iddiaçı namizədliyini geri götürüb. İddiasından geri çəkilənlər ya hakim partiyanın irəli sürdüyü, ya da iqtidara meyilli şəxslərdir.

Seçkilərə qatılan demokratik düşərgənin ümumi dəyərləndirməsini aldıq.

Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahının rəhbəri Gülağa Aslanlı təşviqat prosesindən keçən müddətin ciddi qanun pozuntuları ilə müşahidə olunduğunu qeyd etdi: "Seçki mühiti olmayan bir şəraitdir. Azərbaycanda hakimiyyət ümumiyyətlə, seçki keçirmək istəmir. Buna siyasi iradəsi çatmır. Seçkiləri kölgədə qoymaq üçün düşünülmüş addımlar atılır. Seçicilərlə görüşlərə ciddi maneələr var. Müsavat Partiyasına məşvərətçi səs hüquqlu məntəqələrə müşahidəçilər vermək üçün imkanlar tanınmır. Bir sıra dairələrdə görüş yerləri Bakı Şəhər İcra Hakimiyyətinin ayırdığı yerlərlə məhdudlaşır. Hətta bəzi dairələrdə bir məhlədə 10 nəfərlə görüşmək üçün DSK-lardan icazə alınması kimi absurd iddialar irəli sürülür. Hakimiyyət bütün hallarda resursları hesabına Müsavat Partiyasının namizədlərinin əhali ilə görüşlərinə şərait yaratmaq fikrində deyil. Hakimiyyət bir daha azad, ədalətli seçkilər keçirmək istəyində olmadığını bu hərəkətləri ilə təsdiqləyir. Namizədlərimizin hər birinin qələbə şansları yüksəkdir. 25 namizədin hər birinin bu şansı var. Amma bunun üçün ölkədə azad seçki mühiti, bərabər seçki rəqabəti yoxdur".

"AĞ blok"un seçki qərargahının rəhbəri Əhəd Məmmədli təbliğat kampaniyasi mərhələsində olan seçki mühitini belə dəyərləndirdi: "Bildiyimiz kimi, "AĞ blok"un 4 namizədi qeydə alındı. Onların hər birinin təbliğat dönəmi ilə razıyıq. Çünki hakimiyyətin yaratdığı məhdud imkanlar daxilində əlimizdən gələni edirik. Namizədlərimiz görüşlər keçirirlər, hər birinin seçki qərargahı gecə-gündüz işləyir. Sevindirici haldır ki, blokumuzun təsisçilərindən olan, 21 saylı Nəsimi seçki dairəsindən namizədimiz Tural Abbaslının plakatlarının dükanların qabağına vurulmasına dükan sahibləri məmnuniyyətlə razılıq verirlər. Yəni insanların qəlbindən artıq əvvəlki illərdə olan qorxu silinib. Hakimiyyət nə qədər məhdud imkanlar yaratsa da, insanların Nəsimidə Tural Abbaslıya olan marağını görürük. Namizədlərimizin hər biri öz dairələrində favoritdir. Seçkilər azacıq da olsa, ədalətli keçirilsə, 21 saylı dairədən Tural Abbaslının qələbə qazanacağına şübhəmiz yoxdur. Ağsuda Zəka Sahibin təbliğatı yüksək səviyyədə gedir. Onun əsas namizəd olduğunu artıq bütün ölkə bilir. Zərdabdan Elbəy Əsədov və Nərimanovdan Xanlar Abbasın qələbə şansları da kifayət qədər yüksəkdir. Hər şey 1 noyabrdan asılıdır. Tural Abbaslı başda olmaqla, həmin gün hər bir namizədimizin qələbə qazanacaqlarına inamımız tamdır".

"Azadlıq 2015" seçki blokunun seçki qərargahının rəhbəri Bəybala Əbilov da seçki mühitindən şikayətləndi: "Ümumi dəyərləndirməmiz müsbət deyil. Təşviqat prosesi çox zəif keçir. Seçki Məcəlləsində məhdudiyyətlər, yerlərdə maneələr var. İstədiyimiz şəkildə seçkiləri keçirə bilmirik. Böyük dairələrdə görüş üçün cəmi bir yer ayrılır. Seçicilər uzun məsafə olduğundan gələ bilmirlər. Hətta plakat vurulmasına belə mane olurlar. Amma heç bir yerdə iqtidar partiyasının nümayəndəsinə maneçilik yoxdur. Blok olaraq 70-dən çox namizədimizdən 20-i seçkilərə qatılıb. Hər birini şanslı namizəd hesab edirəm".

AMİP katibi Elşən Mustafayev seçki mühitini keçən ilki bələdiyyə seçkilərinə bənzətdi: "Seçkilərdə təşviqat mühiti çox passiv keçir. Keçən il olan bələdiyyə seçkiləri kimi. Seçki mühitini insanların seçkiyə olan münasibəti ilə qiymətləndirə bilərəm. Əhali bu seçkilərə münasibətdə inamsızlıq nümayiş etdirir. Bu baxımdan namizədlərimizin şansı barədə fikir bildirmək çətindir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015

# "MTN işi" daha iki nazirliyi silkələyir

**Eldar Mahmudovun nazir vəzifəsindən çıxarılması ilə Milli Təhlükəsizlik Nazirliyində başlamış hadisələrdən 1 həftə ötdü. E.Mahmudovun istefaya göndərilməsi ilə MTN-də başlamış həbslər, bu strukturda ciddi kadr dəyişiklikləri davam edir. Məlumatlara görə, nazirliyin rəhbər kadrlarının yarıdan çoxu, o cümlədən şöbə rəisləri, rayon MTN-in rəisləri artıq işdən uzaqlaşdırılıb. Müstəqil Azərbaycan tarixində ilk dəfədir ki, hansısa nazirlikdə bu qədər total şəkildə, həm də səbəbi tam izah edilmədən "təmizləmə" həyata keçirilir.**



# Mahmudovun Afrikadakı daş-qaş biznesi: işə diplomatın da adı qarışdı

## İstintaqa cəlb edilən Vergilər Nazirliyinin idarə rəisi Vidadi Məmmədovla sabiq naziri hansı maraqlar birləşdirirmiş - Fazil Məmmədovun da başı dərddə; MTN-in brilyant biznesinin sensasion təfərrüatları; yeni nazir elə Mədət Quliyev ola bilər; amma daha bir namizəd də var...

Təkcə son iki gündə Eldar Mahmudovun "sağ əli" kimi tanınan MTN-in Kadrlar Baş İdarəsinin rəisi, general-mayor Əlimusa Əliyev də daxil olmaqla Antiterror Mərkəzinin rəis müavini polkovnik Nail Tağızadə, idarə rəisi polkovnik Nazim Lətifov, Kadrlar Baş İdarəsinin yüksək rütbəli əməkdaşı Aysel Əlizadə, o cümlədən nazirliyin bir neçə rayon şöbəsinin rəisi vəzifələrindən azad ediliblər. Amma bu "təmizləmə" təkcə MTN-lə məhdudlaşmır. Eldar Mahmudovun bütün dövlət qurumlarında olan kadrları hədəfdədir. İş orasındadır ki, sabiq MTN şefi hakimiyyət içərisində o qədər ciddi fiqura çevrilibmiş ki, bəzi nazirliklərdə özünə "nazir müavini", "idarə rəisi" təyin etdirir və bunu gizlətmirmiş də. İndi isə onların işdən çıxarılması və məsuliyyətə cəlb edilməsi başlayıb. Bu proses gözlənilən idi. "Yeni Müsavat" həftəsonu bu mövzuda yazdığı manşet materialında MTN-də "partlayan bombanın qəlpələrinin" digər dövlət strukturlarına da sıçrayacağını yazmışdı.

### Eldar Mahmudovun keçmiş iş yoldaşı-"vergi canişini"

Vergilər Nazirliyinin idarə rəisi, 3-cü dərəcəli dövlət dövlət ədliyyə müşaviri Vidadi Məmmədov vəzifədən çıxarılaraq "MTN işi" ilə bağlı Baş Porokurorluğun başladığı istintaqa cəlb edilib. V.Məmmədov bu ilin avqust ayında Vergilər Nazirliyində geniş səlahiyyətlər verilmiş Cinayət xarakterli vergi hüquqpozmalarının təhlili və vergi borclarının alınması işinin təşkili baş idarəsinə rəis təyin edilib. İddiaya görə, o da MTN-in təlimatları əsasında iş adamlarını soyurmuş. V.Məmmədov iş adamlarını öz otağına çağıraraq istədiyi rüşvəti ala bilmədiyinə görə qandallatdıra da bilirmiş. V.Məmədovun rəhbərlik etdiyi yeni idarə ödənilməmiş vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin, borcluların əmlakına həbs qoyulmaq kimi geniş səlahiyyətlərə sahib olub.

"Yeni Müsavat"ın məlumatına görə, V.Məmmədovun istintaqa cəlb edilməsi və mümkün həbsi vergilər naziri Fazil Məmmədovun hakimiyyətdə laxlamış mövqeyinə təsir edəcək, iş adamlarının MTN-də incidilməsindən nazirin nə qədər məlumatlı olması araşdırılacaq. Hər halda barəsində çoxsaylı şikayətlər olan V.Məmmədovun niyə cəmi iki ay qabaq daha geniş səlahiyyətli idarəyə rəis təyin edilməsinin hesabı sorulacaq. Bu təyinatda E.Mahmudovla yanaşı vergilər nazirinin də nə qədər marağı olduğu araşdırılacaq.

Vidadi Məmmədovla E.Mahmudovun münasibətləri hələ Daxili İşlər Nazirliyində İqtisadi Cinayətkarlıqla Mübarizə İdarəsində başlayıb, bir yerdə işləyiblər. Sözügedən idarə ləğv edildikdən sonra onların yolları ayrılıb, V.Məmmədov Vergilər Nazirliyində əməliyyatçı vəzifəsinə düzəlib. Amma belə görünür ki, məhz E.Mahmudov sayəsində əməliyyatçı vəzifəsindən Vergilər Nazirliyində ən mühüm posta yüksələ bilib.

### MTN brilyant biznesini necə ələ keçirib - şok xəbər

MTN-in brilyant biznesini monopoliyaya aldığı barədə ötən saylarımızda xəbər vermişdik. Bu mövzuda daha sensasion məlumatlar almışıq. Məlumatlı mənbənin iddiasına görə, MTN brilyant trafikini bir neçə il əvvəl - AZAL-ın təhlükəsizlik xidmətində qalmaqallı həbslərdən sonra nəzarətə keçirib. 2007-ci ildə MTN-in keçirdiyi əməliyyat zamanı AZAL-ın Təhlükəsizlik Xidmətinin rəisi Emil Süleymanov, eləcə də MTN-in Binə Hava Limanındakı şöbəsinin rəisi Rafət Əliyev də daxil olmaqla daha bir neçə nəfər "Rusiyanın xeyrinə casusluq ittihamı" ilə həbs edilmişdilər. Bu iş mediada da ciddi rezonans doğurmuş və günlərcə müzakirə edilmişdi. Mənbə deyib ki, əslində bu həbslərdə məqsəd hava limanında brilyant idxalına nəzarəti ələ götürmək olub. "Çünki onların Rusiyanın xeyrinə işləyib ali dövlət rəhbərliyinin iqamətgahını dinləmək imkanları real deyildi. Onlar nə xarakter etibarilə buna risk edə, nə də bu cür müasir texniki vasitə əldə edə bilməzdilər", deyə mənbə bildirib. Mənbəmiz daha bir sensasion iddiasında deyib ki, MTN rəhbərliyi hətta brilyant trafikini xaricdən yönləndirmək üçün Xarici İşlər Nazirliyindən səfirlik postu belə almağa nail olub. Qaynağımız bu biznesin yönləndirilməsi üçün daş-qaş ehtiyatları ilə zəngin bir Afrika ölkəsində Azərbaycanın səfirliyini yaratmağa nail olduqlarını deyib. Həmin ölkənin və səfirin adı redaksiyamıza məlum olsa da, bu mövzuda araşdırma apardığımız üçün hələ yazmırıq. Amma mənbə deyib ki, E.Mahmudovun istefaya göndərilməsindən sonra XİN indi həmin Afrika ölkəsindəki səfiri də geri çağırmaq istəyir. Amma onun da siyasi sığınacaq istəməsi ehtimalı olduğundan hələ ki gözləməyə qərar veriblər.

### Yeni nazir - heç kimin gözləmədiyi yeni namizəd

Oktyabrın 19-da prezident İlham Əliyevin sərəncamı ilə ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi Mədət Quliyev milli təhlükəsizlik nazirinin birinci müavini təyin olunub. Eyni zamanda, yeni nazir təyinatı olana qədər nazir səlahiyyətlərinin icrası da M.Quliyevə həvalə edilib. Məlumdur ki, prezident daha bir fərmanla MTN strukturunda dəyişikliklər edib. Gözlənilir ki, MTN-in bəzi səlahiyyətləri Dövlət Sərhəd Xidməti, Müdafiə və Daxili İşlər nazirlikləri arasında bölüşdürülsün. Məlumdur ki, artıq gizli dinləmələrlə bağlı DİN-ə də səlahiyyətlər verilib.

Yeni nazirin kim ola biləcəyi ilə bağlı mediada bəzi isimlər hallanıb. Amma ənənəvi olaraq bu cür proqnozlar doğrulmur. Məsələn, elə M.Quliyevin nazir müavinin təyin ediləcəyi heç kimin ağlına belə gəlməzdi. Məlumatlara görə, MTN şefinin bu cür sərt vurulması həm də iqdarda ikinci soyadın da zəifləməsi kimi yozulub. Çünki E.Mahmudov naxçıvanlı olsa da, iqtidarda "Bakı qrupu" kimi tanınan komandada təmsil olunurdu. E.Mahmudovun vurulması ilə "Bakı qrupu"nun ən nüfuzlu simalarından olan Əli Əsədovun istefası da gündəmə gəlib, mediaya onunla bağlı da ciddi faktlar ötürülür. Uzun illərdir Bakı Şəhər İcra Hakimiyyətinin başçısı postuna iddialı olan Ə.Əsədovun MTN şefinin işdən çıxarılması ilə mövqeyi kifayət qədər zəifləyib. Ona görə də MTN-də "Bakı qrupu"na əks qrupdan birinin vəzifə alması əvvəldən şübhəli görünürdü. Bu səbəbdən də heç kimin gözləmədiyi halda, M.Quliyev birinci müavin təyin edildi.

Hakimiyyətə yaxın qaynaqlardan əldə etdiyimiz məlumata görə, belə bir ehtimal var ki, M.Quliyev özü bir-iki aydan sonra nazir vəzifəsinə təyinat ala bilər. Daha bir ehtimal ədliyyə nazirinə yaxın olan Prezident Administrasiyasında hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərovun namizədliyinin müzakirə edilə bilməsidir. "ASAN xidmət"in əsas ideya müəllifi kimi tanınan F.Ələsgərovun hazırda prezidentin yanında etimadı yüksəkdir.

### Müqavimət başladı, yoxsa...

MTN-in Antiterror Mərkəzinin qulluq mövqeyindən sui-istifadə etməkdə ittiham olunaraq həbs edilən sabiq rəis müavini, polkovnik İlqar Əliyev apelyasiya şikayəti verib. Virtualaz.org xəbər verir ki, İlqar Əliyev ona qarşı irəli sürülən ittihamlarla razı deyil və barəsindəki məhkəmə qərarından şikayət etməyə hazırlaşır.

Xatırladaq ki, MTN-in 7 əməkdaşına qarşı CM-in 302.2 (əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 309.1-ci (vəzifə səlahiyyətlərini aşma) maddələri ilə ittiham irəli sürülüb. Onlar barədə məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib. Ehtimal etmək olar ki, həbs edilənlər əsas fiqurun - Eldar Mahmudovun məsuliyyətdən kənarda saxlanılması ilə razılaşmırlar və bu səbəbdən də müqavimət göstərməyə başlayıblar.

❑ **"Yeni Müsavat"**

# BTRİB-in rəis müavini "MTN işi" üzrə yoxlanılır - həbsi gözlənir




**Bakı Telefon Rabitəsi İstehsalat Birliyində (BTRİB) "MTN işi" ilə bağlı yoxlamalar davam edir. Musavat.com-a daxil olan məlumata görə, artıq BTRİB-in baş direktor müavini Əhməd Mehdiyevin də fəaliyyəti hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən yoxlanılır.**

Əldə etdiyimiz məlumata görə, Ə.Mehdiyevlə qurumun texniki direktorunun müavini Qalib Xəlilovun (onlar həm də yeznə-qayındılar-red.) qısa müddət ərzində böyük sərvətə sahib olması hər iki məmuru diqqət mərkəzinə gətirib. Belə ki, məlumatlara görə, Ə.Mehdiyev qayını Qalib Xəlilovun əli ilə qeyri-qanuni tikintilər aparıblar. Məsələ ilə bağlı araşdırmanın aparıldığı bildirilir.

Qeyd edək ki, milli təhlükəsizlik naziri Eldar Mahmudov vəzifəsindən azad edildikdən sonra onun qohumu BTRİB-in rəhbəri Beytulla Hüseynov hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Daha sonra isə o, Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasovun əmri ilə işdən azad olunub.

❑ **Əli RƏİS**

YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015

# "Sabirabadlılar daha bir tarix yazacaqlar"

## Pənah Hüseyn: "Heç də hər şeyin itirilmədiyi, yola davam qənaətindəyəm və uğur qazanacağıma da inanıram"

**63 saylı Sabirabad birinci seçki dairəsindən deputatlığa namizəd, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn "Yeni Müsavat" qəzetinə müsahibə verib. Həmin müsahibəni təqdim edirik.**

***- Pənah bəy, ölkədə builki Milli Məclisə seçkilər, demək olar ki, hiss olunmur. Siz də bu seçkilərdə deputatlığa namizədsiniz. Seçki kampaniyasının başa çatmasına isə cəmi bir həftə qalır. Vəziyyəti necə dəyərləndirirsiniz?***

- Mənim namizəd olduğum 63 saylı Sabirabad birinci seçki dairəsində situasiyanı ümumi fonda əlahiddə, istisnavi hal hesab edə bilərsiniz. Hər halda bu günə vəziyyət belədir. Bizim dairədə seçki mübarizəsinin bütün komponentləri müşahidə olunur. Seçicilərlə açıq hava görüşlərindən tutmuş qara piara qədər. Və tam cəsarətlə deyə bilərəm ki, burda gündəmi biz diqtə edirik və rəqiblərimiz də geri qalmamağa çalışırlar. Amma əlbəttə ki, yamsılama əslə uduzur. Bizim təhlillərimizə görə xeyli qabaqdayıq.

***- Rəqiblərimiz dediniz, orda mübarizədə neçə rəqibiniz var ki?***

- Mənim rəqibim YAP Sabirabad rayon təşkilatının bəzi funksionerləri və ona dəstək verən bəzi yerli icra hakimiyyəti, bələdiyyə məmurlarıdır. YAP-ın rəsmi namizədi Elçin Quliyevin də az-çox öz resursları var. Lakin prosesə təsir baxımından bu elə də ciddi rol oynamır.

***- Yerli icra hakimiyyəti və bələdiyyə strukturlarının kampaniyada iştirakı qanunsuz deyilmi?***

- Qanunsuzdur. Lakin mən açıq bəyan eləmişəm ki, müəyyən çərçivədə bu müdaxilədən şikayət verməyəcəm. Mənim şərtim odur ki, "karusel" olmasın, protokollar saxtalaşdırılmasın, qutuya saxta bülleten atılmasın. Qanunsuz da olsa digər başqa yollarla, məsələn, pul verməklə, inzibati resurslardan istifadə etməklə və sair bu kimi üsullarla həqiqi seçicini qutuya gətirib səsini alsınlar, nəticənu mən qəbul edərəm.

***- Pənah bəy, çox əmin danışırsınız....***

- Mən builki seçki kampaniyasında respublikada ən çoxsaylı açıq hava görüşlərini keçirə bilmişəm. Məsələn, Quruzma bələdiyyəsi ərazisindəki stadionda görüşdə 700-dən çox seçici iştirak etdi. Digər görüşlərimiz də bir qayda olaraq 200-dən çox insan iştirak edir. Belə görüşlər bəziləri, elə dostlarım üçün də gözlənilməz olub. Mənə dedilər ki, feysbukda həmin dostlardan biri adımı çəkməsə də bu izdihamlı görüşlərdə "iqtidar izi" gördüyünü və bu səbəbdən məni təbrik etmədiyini yazıb. Allah ağıl versin. Bu həftənin 3-cü günü saat 4-də Sabirabad şəhər bələdiyyəsinin mərasim evində böyük görüşüm olacaq. Həm də bu kütləvi görüşlər seçicilərlə görüşlərimizin görünən kiçik bir hissəsidir. Mən özüm həyətlərdə, məhəllələrdə, evlərdə, küçələrdə, bazarda, 5, 10, 20 nəfərin iştirk etdiyi yüzlərlə görüş keçirmişəm və seçkiyə qalmış bu sonuncu həftədə belə görüşlərin sayı bir neçəyə qatlanacaq. Rayon seçki qərargahımızın, məntəqə seçki qərargahlarımızın üzvlərinin sayı yüzlərlədir və onlar da seçicilərlə iş aparırlar. Nail olacağıq ki, ünsiyyət qurmadığımız bir yer, seçici qrupu qalmasın.

***- Seçkilərə münasibətdə ümumi laqeydlik, süstlük, və passivlik şəraitində sizin bəhs etdiyiniz bu fəallığın səbəbini necə izah edirsiniz?***

- Açıqcası bu, dairədəki seçkiətrafı ab-hava ilə əlaqədardır. Belə bir fikir formalaşıb ki, bu dairədə saxtakarlığa icazə və yol verilməyəcək. YAP rayon təşkilatı öz namizədi üçün çalışır və bu zaman icra hakimiyyəti və bələdiyyələrin resurslarından bəhrələnir. Məsələn, inzibati qaydada öz namizədinin görüşlərinə müəllimləri, həkimləri, büdcədən maliyyələşən digər idarə-müəssisələri cəlb edir və bəzən də elə olur ki, məsələn, eyni məktəbin müəllimlərini 2-3 "görüşə" aparırlar. Ancaq etiraf edim ki, bəzi halları nəzərə almasaq, mənə kampaniyada, nə icra hakimiyyəti, nə polis və nə də digər strukturlar tərəfindən kömək edilməsə də, ciddi maneələr də yaradılmayıb. Bu da bizə kifayət edir. Hər halda, bu, reallıqdır ki, şəxsi siyasi reytinq və populyarlıq, tanınma baxımından indiki YAP namizədinin mənimlə Sabirabadda rəqabət aparması çətindir, bəlkə də mümkün deyil. Bundan əlavə, Sabrabadda bir Ceyhun Osmanlı sindromu var. Mənim fikrimcə, rəqiblərimiz Ceyhun Osmanlı olayının, təcrübəsinin Sabirabadın ictimai fikrində səbəb olduğu təlatümləri doğru-düzgün hesablaya, bu baxımdan elə də uğurlu namizəd müəyyənləşdirə bilməyiblər. Ona görə onlar həm də məcbur olub belə bir təbliğat üsulu seçdilər ki, seçim Pənah Hüseyn-Elçin Quliyev arasında yox, iqtidar və müxalifət arasındadır, kimə səs verilməsi konkret namizədə yox, ölkənin rəsmi siyasi rəhbərliyinin kursuna münasibət məsələsidir. Əlbəttə ki, ölkədəki indiki real siyasi situasiya və siyasi qüvvələr nisbətində opponentin təbliğatının bu formada qurulması, mənim üçün ümumiyyətlə problem yaratmır desəm, doğru olmaz. Lakin əvvəla, dediyim həmin real siyasi situasiya gözlə görünəcək, hiss olunacaq dərəcədə dəyişməkdədir. Həm də bu məsələdə rəqiblərimiz ifrata vardılar və cəmiyyətdəki müxalif əhval-ruhiyyəni ümumiyyətlə heçə saymaqla, məncə, strateji səhvə yol verdilər. Məsələn, mənim anadan olduğum kənddə süni bir görüş keçirib, məsələlərdən baş çıxarmayan birinin dili ilə "yox olsun müxalifət" şüarınıı səsləndirdilər. Sizi inandırıram ki, orda olan YAP üzvləri belə buna əl çalmayıblar. Mən, onların əksinə, "Azadlıq-2015"-in Milli Birlik platformasından çıxış edirəm, hər yerdə bəyan edirəm ki, Pənah Hüseyn deputat seçilsə, əlbəttə siyasi müxalifət mövqeyində qalmaqda davam edəcək, müxalifətçiliyindən əl çəkməyəcək, lakin təkcə müxalifətin yox, siyasi mənsubəyyətindən, ona səs verib-verməməsindən asılı olmayaraq bütün seçicilərin, bütün sabirabadlıların, bütün Azərbaycan xalqının deputatı olacaq. Mən indiki gərgin vəziyyətdə cəmiyyəti siyasi qütblərə bölünməni dərinləşdirməyin yox, daxili gərginliklərin azaldılmasını, bunun ifadəsi kimi milli birliyin həyati zərurətini irəli sürüb əsaslandırıram. Sizi inandırıram ki, bu məsələyə maraq, dəstək, sosial və siyasi problemlərə maraqdan az deyil və indiki situasiyada bəlkə də daha çoxdur. Bizim platformamızdakı demokratik inkişav və sosial dövlət şüarlarının milli birliklə üzvi sistem halına salınması, təqdim olunması insanlar tərəfindən tam anlamla qarşılanır. Bu gün gizli deyil ki, həm müxalif, həm də iqtidar düşərgəsində işlənib hazırlanan və son bir ildə həyata keçirilməyə cəhd olunan, təssüf ki, hazırda ciddi problemlərlə üzləşən, açıqcası bu seçkilərdə iqtidarın seçdiyi yanaşma üzündən ciddi böhran keçirən bu kursun şəxsləndirilmiş ifadələrindən birinin də Pənah Hüseyn olduğu bəllidir. Adamlar bu kursu və onu irəli sürənləri anlaşıqla qarşılayırlar və təqdir edirlər. Bundan əlavə, mənim seçki komandamda illərlə bir yerdə olduğumuz dostlarımızla yanaşı əhəmiyyətli şəkildə yeni, xeyli gənc var və bu, bütün görüşlərdə görünür. Opponentin, belə demək mümkünsə, komandası isə demək olar ki, bütünlüklə 2010-cu ildəki Ceyhun Osmanlı komandasıdır. 2010-da Ceyhun Osmanlıya tərif yağdırıb onu Sabirabadın, Azərbaycanın xilaskarı kimi təqdim edən eyni şəxslər, eyni sifətlər indi mənə rəqib olan Elçin Quliyevi tərifləyib ona səs verməyə çağırırlar. Elə bu hal rəqiblərimizin uğursuzluğunu əvvəlcədən müəyyən edib.



63 SAYLI SABİRABAD BİRİNCİ SEÇKİ DAİRƏSİNDƏN DEPUTATLIĞA NAMİZƏD
HÜSEYN PƏNAH ÇODAR OĞLU

1957- ci ildə Sabirabad rayonunda anadan olub.
1972- cü ildə Sabirabad rayonu Qaraqaşlı kənd 8 illik məktəbini,
1974- cü ildə Sabirabad rayonu Quruzma kənd orta məktəbini
1980- ci ildə Azərbaycan Dövlət Universitetini,
1986- cı ildə AR Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasını bitirib
Elmi işini Moskvada SSRİ Elmlər Akademiyasının Sosioloji Tədqiqatlar institutunda, milli münasibətlər üzrə ən tanınmış sovet alimlərindən olan prof. M, S. Cunusovun rəhbərliyi altında həyata keçirib.
1987- 1992- ci illərdə AR EA Fəlsəfə və hüquq institunda laborant, kiçik elmi işçi və elmi işçi vəzifələrində işləyib və Azərbaycan Pedaqoji İnstitutunda (indiki Azərbaycan Pedaqoji Universitetində) və Xarici Dillər İnstitutunda (indiki Xarici Dillər Universitetində) fəlsəfə fənnindən dərs deyib
1980- ci illərin sonu- 90- cı illərin əvvəllərində Azərbaycan milli azadlıq və demoktik hərəkatının aparıcı liderlərindən olub.
1988- 1992- ci illərdə AXC- nin təsisçisi, AXC birinci və ikinci tərkib İdarə Heyətinin üzvü , AXC Analitik Mərkəzinin rəhbəri və AXC İcraiyyə Komitəsinin sədri olub.
1992- 1993- cü illərdə Azərbaycan Respublikasının Dövlət Katibi və Baş Naziri vəzifələrində işləyib.
2005- 2010 –cu illərdə III çağrış AP Milli Məclisinin deputatı olub.
Hazırda peşəkar siyasi fəaliyyətlə məşğuldur. 1999- cu ildə bir qrup tərəfdarları ilə Azərbaycan Xalq Partiyasını (AXP) təsis edib və həmin dövrdən AXP – nin sədridir.

Ailəlidir. Üç övladı var.

"AZADLIQ-2015"

**"Mənim şərtim odur ki, "karusel" olmasın, protokollar saxtalaşdırılmasın, qutuya saxta bülleten atılmasın"**

***- Pənah bəy, zaman-zaman bir çoxları milli birlikdən danışıb və danışırlar. Etiraf edək ki, bu anlayış bu səbəbdən yıpranıb. Həm də bu anlayış çox mücərrəddir, ümumidir, hər siyasi qüvvə də öz maraq və mənafelərini milli birlik adı altında siyasi bazara sürür. Sizin "milli birliyinizdə" nə var ki, insanların dəstəyini almağa ümid edirsiniz?***

- Əvvəla, dünyada, regionda və konkret bizim ölkədə də açıq-aydın görünən geosiyasi, hərbi-siyasi, iqtisadi və sosial böhran cəmiyyəti həyacanlandırıb və insanlar bu böhranın Azərbaycanda da fəsadlara səbəb olacağı ehtimalından ciddi narahatdır. Mən deyərdim ki, sosial instinktiv olaraq belə təhlükəli çıxış yollarının şərti kimi birləşmək məsələsi, milli birlik məsələsi önə çıxıb. Eyni zamanda bizim platformada bu anlayış, Qarabağ məsələsində dünya qarşısında vahid mövqe nümayiş etdirmək, iqtidarla müxalifət arasında geniş dialoq başlanması və bütün problemlərin danışıqlar yolu ilə həll edilməsi və nəhayət, din pərdəsi altında zühur edən ekstrmizm və terrora qarşı mübarizədə cəmiyyətimizin birliyini nəzərdə tutur. Və bir daha təkrar edirəm, bizim anlamda, seçki plaformamız kontekstində milli birlik demokratik inkişaf və sosial dövlət və bunları reallaşdıracaq köklü islahatlarla bir sistem halında təqdim edilir. Müxalifətin mühüm bir kəsiminin böykot etdiyi bu seçkilərdə iştirakımızın da bu kursun tərkib hissəsi olduğunu insanlara izah etməyə çalışıram və məncə yuxarıda da dediyim kimi, bu, anlayışla qarşılanır. Hərçənd ki, bu kursun bizdən asılı olmayan səbəbdən hazırda ciddi böhran keçirdiyi də göz qabağındadır. Bu Milli Məclis seçkilərində bütün istiqamətlər üzrə bizim gözləntilərimizin əksinə olaraq milli birlik dediyimiz modelin işləməyə başlaması üçün malik olduğu şansları təəssüf ki, doğrultmadı. Bütün siyasi müxalifətin seçkilərə qatılması üçün irəli sürülən şərtlər yerinə yetirilmədi, hətta müzakirəyə alınmadı. Təsəvvür edin ki, "Azadlıq 2015" seçki blokundan 7 partiya sədrindən yalnız 3-ü namizəd kimi qeydə alına bildi. KXCP sədri Mirmahmud bəy, Azadlıq pariyasının sədri Əhməd bəy, AİP sədri F.Əliyev, Aydınlar Partiyasının sədri Q.Əlibəyli, AXP sədrinin birinci müavini Q.Sadıqov, onlarla digər naizədlərimiz qeydə alınmadı. Əvəzində, məsələn, bizim dairədə təmamilə qondarma şəkildə 6- 7 namizəd qeydə aldılar və onların da 4-ü qeydə alınandan bir neçə gün sonra namizədliklərini geri götürdü, digər dördü də heç görsənmir. Belə absurd olarmı? Televiziya efir vaxtının ləğv edilməsi ilə seçki bir tərəfə, seçki görüntüsünü belə yox elədilər. Lakin belə bir şəraitdə də ümid qalır ki, hələ çıxış yolları tükənməyib. Seçkilər hələ keçirilməyib. Boş qala biləcək yerlərə əlavə seçkilər imkanları qalır. Milli Məclisdən əlavə, yenə bizim platformamızdakı, Nazirlər Kabinentinin oliqarxsızlaşdırılması və siyasi müxalifət cəlb edilməklə milli birlik hökuməti yaratmaq və s. imkanlar da qalır. Son günlər hakim düşərgədəki təbəddülatlar, bunun yanğıları, bəzi antiböhran tədirləri də yeni gözləntilər əhval- ruhiyyəsi doğurmuşdur. Tam əminliklə deyirəm ki, bu cür gözləntilər əhval-ruhiyyəsi şəraitində son illərdə müxalifət düşərgəsinin bütün kəsimlərinin iştirakı ilə işlənib hazırlanmış və bu seçkilərdə "Azadlıq-2015"-in seçki platformasının əsasına qoyulmuş milli birlik, demokratik inkişaf, sosial dövlət konsepsiyası, koklü demokratik və sosial islahatlar proqramı nəzərə alınarsa, böhran situasiyasından çıxmaq üçün əlverişli siyai-sosial mühit formalaşa bilər. Odur ki, heç də hər şeyin itirilmədiyi və yola davam qənaətindəyəm və uğur qazanacağımıza da inanıram. Başqa düzgün alternativ də görmürəm. Sabirabadlılar 2005-də seçkilərdə bir tarix yazdılar. İnşallah bu dəfə də yeni bir tarix yaradacaqlar.

❑ «Yenì Müsavat»

# 63 saylı Sabirabad birinci seçki dairəsindən deputatlığa namizəd HÜSEYN PƏNAH ÇODAR oğlunun Seçki Platforması

S.R.

## Milli Birlik, Demokratik İnkişaf, Sosial Dövlət

Mən Azərbaycanı milli-mənəvi dəyərlərə dayanan, müasir mədəniyyətlər səviyyəsində inkişaf etmiş, çağdaş dövrün tələblərinə cavab verən, beynəlxalq ictimaiyyətin və öz vətəndaşlarının rəğbətini qazanmış milli, demokratik, sosial dövlət kimi görmək istəyirəm. Bunun üçün ölkəmizdə demokratik və sosial yönümlü siyasi sistemin, azad rəqabətə əsaslanan iqtisadiyyatın yaranması, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin inkişafı üçün aşağıdakı tədbirlərin görülməsini, təcili və köklü islahatların aparılmasını vacib sayıram.

**1.** Erməni işğalı altındakı torpaqların azad edilməsi, ölkənin ərazi bütövlüyünün təmin edilməsi, Azərbaycanın dövlət müstəqilliyinə mənbəyindən asılı olmayaraq təhdidlərin önlənməsi üçün dövlət-xalq - vətəndaş biliyinin reallaşdırılması, Qarabağ məsələsində beynəlxalq aləm qarşısında ümummilli mövqe nümayiş etdirilməsi.

**2.** Hakimiyyətlə müxalifət arasında geniş formada siyasi dialoqun başlanması və mövcud problemlərin danışıqlar yolu ilə həll edilməsi.

**3.** Siyasi hakimiyyətin oliqarxsızlaşdırılması. Siyasi və iqtisadi hakimiyyətlərin ayrılması və onlar arasında sağlam və yalnız qanunlarla tənzimlənən rəqabət mühitinin bərqərar edilməsi. Adı ciddi korrupsiya iddialarında hallandırılan məmurlar vəzifədən uzaqlaşdırılması, barələrində təhqiqat başlanması və təhqiqat başa çatana qədər onların ali dövlət hakimiyyəti orqanlarında rəhbər vəzifələr tutmalarına yol verilməməsi.

**4.** Siyasi amnistiya verilməsi, bütün siyasi və vicdan məhbuslarının azad olunması.

**5.** İnformasiya haqqında qanun liberallaşdırılması və diffamasiya haqqında qanunun qəbulu. Yazılı və elektron KİV-lərdə cəmiyyətin bütün təbəqələrinin, o cümlədən siyasi müxalifətin informasiya yaymaq və almaq hüququnun bərabərlik prinsipi əsas götürülməklə təmin edilməsi.

**6.** "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunda kütləvi aksiyaların keçirilməsini məhdudlaşdıran antidemokratik yasaqların aradan qaldırılması.

**7.** Vicdan və dini ibadət azadlıqları və o cümlədən hicab azadlığının təmin edilməsi. Dünyəvi dövlət çərçivəsində qalmaqla dinlərin və özəlliklə əhalinin böyük əksəriyyətinin özünü aid etdiyi islam dini tarixinin və əsaslarının öyrənilməsi sahəsində dövlət proqramının hazırlanması və həyata keçirilməsi. Milli Birliyə təhdid olan bölücü təriqətçiliyə və məssəbçiliyə yol verilməməsi, din pərdəsi altında aparılan ekstremizmə və terrorizmə qarşı mübarizə aparılması.

**8.** QHT-lərin qeydiyyatının sadələşdirilməsi və sərbəst fəaliyyət imkanlarının təmin edilməsi.

**9.** Siyasi partiyaların normal fəaliyyətinin təmin edilməsi üçün dövlətin üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində əməli addımlar atması.

**10.** Yeni konstitusiya qəbulu. Yeni konstitusiya layihəsinin hazırlanması və müzakirəsi çərçivəsində prezident respublikasından parlament respublikasına keçid haqda geniş ictimai diskussiyalar aparılması.

**11.** Konstitusiyada Ali hakimiyyət və yerli özünüidarə orqanlarının proporsional-majoritar (qarışıq) seçki sistemi əsasında formalaşdırılması qaydasının təsbiti.

**12.** Bütün hakimiyyət qollarının azad, ədalətli, demokratik seçkilər yolu ilə seçilməsi. Seçki Məcəlləsinin demokratikləşməsi məqsədilə onda vətəndaş cəmiyyəti təşkilatlarının, siyasi müxalifətin və beynəlxalq təşkilatların təklif və tövsiyələrini nəzərə alan dəyişikliklər edilməsi. Seçki komissiyalarının hakimiyyət və müxalifətin paritet əsasda təqdim etdikləri namizədlərdən formalaşdırılması.

**13.** Hakimiyyətin bölünməsi prinsipinə nail olmaq məqsədi ilə Nazirlər Kabinetinin və Milli Məclisin səlahiyyətləri genişləndirilməsi.

**14.** Müstəqil məhkəmə sisteminin formalaşdırılması üçün hakimlər korpusunun seçilməsi və fəaliyyət prinsipləri ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklər edilməsi.

**15.** Hakimiyyət orqanlarında rəhbər vəzifələrə seçilmə, vəzifə müddəti, təkrar seçilmə və s. kimi məhdudiyyət prosedurları konstitusiyada təsbit edilməsi.

**16.** Təhlükəsizlik sektoru üzərində parlament nəzarətinin təmin edilməsi məqsədi ilə müvafiq hakimiyyət strukturlarının Milli Məclisə hesabatlılığı qaydasının təsbit edilməsi. Silahlı qüvvələrdə xidmət müddətinin peşəkar xidmət hərbi qulluqçularının sayının artırılması hesabına həqiqi hərbi xidmət müddətinin azaldılması. Bütün ali təhsil pillələri üzrə hərbi xidmətə möhlət hüququnun təbiq edilməsi.

**17.** Qanunvericilikdə iri şəhər bələdiyyələrinin yaradılması və bələdiyyə başçılarının birbaşa seçilməsi qaydasının təsbit olunması.

**18.** AR-da qüvvədə olan normativ - hüquqi aktların korrupsiya və digər qanunazidd məqsədlərlə sui-istifadə hallarını ələnhinə müstəqil ekspertizasının aparılması.

**19.** Korrupsiyaya qarşı Dövlət Komissiyasının siyasi müxalifətin və vətəndaş cəmiyyətinin iştirakı ilə, yenidən təşkil edilməsi. Mətbuatın və vətəndaş cəmiyyəti sektorunun təmsilçiliyi əsasında müstəqil antimonopoliya komissiyasının yaradılması və şəffaf şəkildə fəaliyyəti.

**20.** Yüksək vəzifəli məmurların və onların yaxın qohumlarının əmlaklarının, kapitalının və gəlirlərinin bəyan edilməsi qaydası təbiqi.

**21.** Dövlət büdcəsindən maliyyələşən iş və xidmətlərin məcburi monitorinqi.

**22.** İqtisadi-maliyyə amnistiyası elan edilməsi. Leqallaşmış xüsusi mülkiyyətin toxunulmazlığına təminat verilməsi.

**23.** İqtisadi fəaliyyət azadlığı və biznes mühitinin yaxşılaşdırılması üçün tədbirlər görülməsi, o cümlədən, orta və xırda biznes üzrə ombudsman institutunun yaradılması.

**24.** Xırda və orta biznesdən alınan vergilərin, o cümlədən gömrük vergilərinin ağlabatan həddə qədər azaldılması. Azərbaycanın Dünya Ticarət Təşkilatına daxil olması.

**25.** Maaş və sosial ödənişlərin minimum hədləri və ya baza hissələrinin orta inkişaf etmiş Avropa ölkələri səviyyəsinə qədər artırılması.

**26.** Kredit böhranının həlli üzrə dövlət proqramının hazırlanması və həyat keçirilməsi



### 63 SAYLI SABİRABAD BİRİNCİ SEÇKİ DAİRƏSİNDƏN DEPUTATLIĞA NAMİZƏD
### HÜSEYN PƏNAH ÇODAR OĞLU

1957- ci ildə Sabirabad rayonunda anadan olub.
1972- cü ildə Sabirabad rayonu Qaraqaşlı kənd 8 illik məktəbini,
1974- cü ildə Sabirabad rayonu Quruzma kənd orta məktəbini
1980- ci ildə Azərbaycan Dövlət Universitetini,
1986- cı ildə AR Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasını bitirib
Elmi işini Moskvada SSRİ Elmlər Akademiyasının Sosioloji Tədqiqatlar institutunda, milli münasibətlər üzrə ən tanınmış sovet alimlərindən olan prof. M, S. Cunusovun rəhbərliyi altında həyata keçirib.
1987- 1992- ci illərdə AR EA Fəlsəfə və hüquq institunda laborant, kiçik elmi işçi və elmi işçi vəzifələrində işləyib və Azərbaycan Pedaqoji İnstitutunda (indiki Azərbaycan Pedaqoji Universitetində) və Xarici Dillər İnstitutunda (indiki Xarici Dillər Universitetində) fəlsəfə fənnindən dərs deyib
1980- ci illərin sonu- 90- cı illərin əvvəllərində Azərbaycan milli azadlıq və demoktik hərəkatının aparıcı liderlərindən olub.
1988- 1992- ci illərdə AXC- nin təsisçisi, AXC birinci və ikinci tərkib İdarə Heyətinin üzvü , AXC Analitik Mərkəzinin rəhbəri və AXC İcraiyyə Komitəsinin sədri olub.
1992- 1993- cü illərdə Azərbaycan Respublikasının Dövlət Katibi və Baş Naziri vəzifələrində işləyib.
2005- 2010 –cu illərdə III çağrış AP Milli Məclisinin deputatı olub.
Hazırda peşəkar siyasi fəaliyyətlə məşğuldur. 1999- cu ildə bir qrup tərəfdarları ilə Azərbaycan Xalq Partiyasını (AXP) təsis edib və həmin dövrdən AXP – nin sədridir.

Ailəlidir. Üç övladı var.

"AZADLIQ-2015"

**27.** Neft gəlirlərindən hər bir vətəndaşa birbaşa pay verilməsinin təmin edilməsi.

**28.** Ana və uşaqların sosial (pensiya, müavinət və s.) imtiyazlarının bərpa edilməsi.

**29.** Dövlət ali təhsil müəssisələrində ödənişli təhsil sistemi ləğv edilməsi. Ödənişli təhsil sistemi saxlandığı müddətdə təhsil haqlarının artırılmasına yol verilməməsi.

**30.** Ümumi tibbi sığorta sisteminin tətbiqi.

**31.** Elm, mədəniyyət, idman və gənclərin inkişafına dair dövlət proqramlarının davam etdirilməsi.

**32.** Azərbaycan Respublikasının dünya azərbaycanlılarının yeganə müstəqil dövləti kimi beynəlxalq hüquq çərçivəsində qalmaqla onların hüquqlarının müdafiəsini öz üzərinə götürməsi.

**33.** Seçicilərin hüquq, maraq və mənafelərinin dövlət və digər qurumlarla münasibətdə qorunması, seçki dairəsi ərazisinin iqtisadi-sosial problemlərinin həllinin qanunvericiliyə müvafiq formada mümkün olan ən fəal şəkildə iştirak etmək.

YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015

# Deyə biləcəyimiz son söz...



Hüseynbala SƏLİMOV

**Ölkə siyasətinin çox ağır statik duruma gəlməsinin, tamam süst vəziyyət almasının bir səbəbi aparılan sistemli siyasətdirsə, digər səbəbi də bizim müxalifət adamlarının tənbəlliyi, biganəliyi və etinasızlığı ilə bağlıdır. Bəli, hər şeyi öz adı ilə adlandırmaq lazımdır...**

Biz həmişə onlara - müxalifət adamlarına sayğı ilə yanaşmışıq, onlar haqqında mif yaratmışıq, onları zorla çəkib bugünkü günə gətirib çıxarmışıq...

Belə etməsəydik onlar siyasi marafonu çoxdan tərk etmişdilər. Bu adamlar neçə illər jurnalistlərin və jurnalistikanın sayəsində gündəmdə qaldılar. Olsun.

Amma təzyiq jurnalistləri və jurnalistikanı hədəf seçəndə onlar əllərini əllərinin üstünə qoymadılar, medianı müdafiə etmək üçün heç nə etmədilər. O qədər tənbələşşib, o qədər biganələşiblər ki, özlərinə əziyyət verib bir bəyanat da yaymırlar...

Deyirlər ki, bu ölkədə heç nə etmək mümkün deyil. Amma soruşmaq yerinə düşərdi ki, siz nəsə etməyə cəhd etmisinizmi?

Məsələ də bundadır ki, cəhd də yoxdur və heç kim özünə əziyyət vermək istəmir. Düşünürlər ki, onların əvəzinə kimsə etiraz edəcək, kimsə bəyanat yayacaq, amma siyasi dividendlər bunların aktivinə yazılacaq, çünki bunlara elə gəlir ki, əsas işi görüblər, müxalifət institutlarını ələ keçiriblər...

Bu ölkədə kimdir müxalifət soruşanda əsas onların adı çəkilir, çünki müxalifətçilik də həmişə konkret institutlarla və ya strukturlarla assosiasiya olunur...

Amma daha düzgünü bu, olardı ki, deyəsən ki, ölkədə heç bir strukturlaşmış müxalifət yoxdur, insanlar pərakəndə şəkildə etiraz edir, buna görə təqib olunur, hətta həbsə atılırlar. Onlar isə bunların, bir az əvvəldə dediyimiz kimi, siyasi dividendlərini mənimsəyirlər...

Burada mənim yadıma ayı və bal məsələsi düşür. Arı min cür əziyyət çəkir və min cür çiçəkdən bal çəkir. Axırda isə bu balı ayılar yeyir...

Ona görə də bəzən adam düşünr ki, biz jurnalistlər də gərək istiqamətlərimizi korrektə edək, elə edək ki, bizim balımızı ayılar yeməsin...

Açığı mən çoxdan siyasi təəssübkeşlik məsələsini bir tərəfə qoymuşam. Hətta müxaliftədən yazanda da ona görə yazmıram ki, onlara bu, bir dəstək olsun, sadəcə, bütün digər cəmiyyət özəklərini olduğu kimi müxalifəti də araşdırmaq və təhlil etmək istəyirəm...

Gəldiyim qənaət də budur ki, artıq müxalifət yoxdur və ürəyi istəyənlər onların ardınca bir salavat da çevirə bilərlər. Bəli, onlar yoxdur. Ona görə də heç kimə müxalifət, müxalifət lideri deməyin... İstəsəydilər özlərini yada salmağın yolunu tapa bilərdilər. Amma istəmirlər. Əgər onlar istəmirlərsə, biz də lap dünəndən istəmirik...

Deyə bilərsiniz ki, bəs özün necə? Müxalifətçi deyilsənmi? Bircə onu bilirəm ki, mən 90-cı illərdə nə ilə məşğul olurdumsa indi də onunla məşğulam -yazıram, pozuram və bununla ürəyimdən, necə deyərlər, bir tikan çıxaran kimi hiss edirəm özümü...

Deyə bilərsiniz ki, bəs müxalifəti niyə yada salırsan? Cavabım belə olacaq ki, adam bəzən ölüləri də yada salır, yaxşısına rəhmət oxuyur, pisinə isə lənət...

Bir də ki, mən siyasi təhlilçiyəm. Müəyyən mənada bu ölkənin siyasətindəki "aktror"ları, komponentləri, strukturları və institutları araşdırmaqla məşğulam...

Əslində onlar var, ya yox, bunun mənə elə bir isti - soyuğu yoxdur. O işlərlə ki, mən məşğul oluram, bunu qətiyyən müxalifətçilərə görə etmirəm...

Bir dəfə bir jurnalist dostum dedi ki, yazmaq lazımdır, sonuncu oxucu qalana qədər yazmaq lazımdır. Bu sözlər o vaxt mənim çox xoşuma gəlmişdi. İndi də onları əldə bayraq edib yazıram, bəzən tənqid edir, bəzən təqdir edir, bəzən də hətta məsləhət və təklif verməyə çalışıram...

Elə bu yazını yazmağa başlayanda da özümdən soruşdum ki, olmayan müxalifəti yada salmaqla düzgünmü iş görürəm? Sonra qərara gəldim ki, bəli, düz edirəm - mən ölkə siyasətini təhlil edirəm, siyasət isə kompleks anlayışdır...

Və nə yazıqlar ki, bu kompleksə müxalifət anlayışı da daxildir, hətta o, olmasa belə, hətta o, maddi bir varlıq kimi özünü hiss etdirməsə belə...

Təbii ki, mən də istərdim, özü də çox istərdim ki, bizim ölkəmiz də elə qardaş Türkiyə kimi olsun, buralarda da seçki olsun, müxalifət olsun və siyasi tədbirlər olsun...

Amma yoxdur. Bu yoxluq ürəyimi didsə də ondan həvəssiz, peşiman da olmuram, nə işlə məşğul olmuşamsa, onunla da məşğul oluram. Ən azı ona görə ki, hamı özünə cavabdehdir. Və boş-boşuna yaşamayanların bu ölkədə deyə biləcəyi son söz "Heç olmasa, mən cəhd etdim!" sözləri olacaq...



# Sürpriz xoşbəxtlik

**Zamin HACI**
zaminhaci@gmail.com

**Bəh-bəh... Adama elə gəlir hansısa Avropa ölkəsində yaşayırıq. O deyilən "Yeni Azərbaycan" gözləmədiyimiz anda qarşımıza çıxmışdır. Hər gün, hər yerdən xalqa xidmət sorağı gəlməkdədir. İki göz tamaşa eləməyə bəs etmir. Dörd göz lazımdır. Mən elə buna görə dördgöz olmuşam. Bəlkə də bu günlərdə rəmzi yubileyi qeyd olunan "Geriyə, gələcəyə" filmindəki zaman maşınına minərək gələcəyə uçmuşuq.**

Milli təhlükəsizlik nazirinin vəzifələrini icra edən adamın velosiped sürdüyü yerdə fotosu yayıldı. Daha sonra onun köhnə iş yerindəki mətbuat katibi belə bir açıqlama verdi: "Mədət müəllim facebook profilini bağlamağa məcbur oldu, çünki zəhmətkeşlərimiz minlərlə məktub yazıb onu təbrik edirdilər, o isə hamısına cavab verə bilmirdi. Dünən tək canına 200 məktuba "Ok" cavabı yazmış, 3500 statusu "layk" eləmiş və sənətsevərlərimiz üçün də "yutub"dan 50 mahnı paylaşmışdır. Lakin gördü hamıya cavab verməyə imkan yoxdur, xalqın məktublarını cavabsız qoymaq isə xalqa qarşı hörmətsizlik sayıla bilər, bu baxımdan profili bağladı. Buna görə hamınızdan üzr istəyir".

Dəhşətdir. Adam lap ağlamaq istəyir. Sevinc göz yaşlarıdır, təbii ki. Bizi bu cür xoşbəxt günlərə yetirən hökumətə Zərdab qaçqınları, Masallı köçkünləri, Samux didərginləri adından dərin minnətdarlığımı bildirirəm. Heyf, Habil müəllim bu günləri görmədi.

MTN-də gündə bir generalı işdən çıxarırlar. Orda general çıxarmaq sanarsan avtobus sürücüsünü marşrutdan çıxarmağa dönmüşdür.

Vergilər Nazirliyində idarə rəislərini sözün əsl mənasında dənləyirlər. Artıq dükan yoxlamağa adam tapılmır, dükançılar özləri-özlərini yoxlayıb xalq qarşısında hesabat verirlər. Hərçənd, dövlət rəhbərliyinin yoxlamaları qadağan edən sərəncamından sonra buna ehtiyac da yoxdur. Görünür dükançılar inersiya, ətalət nəticəsində yoxlamaları davam etdirirlər. Tezliklə bunun sonu çatacaqdır.

Polis naziri də hər gün bir neçə şöbə, rayon rəisini işdən çıxarır. Bir rəisi isə bölmədə dustağın döyülməsi və ölməsi siqnalına görə qovdu! İnanılmazdır. Kimin ağlına gələrdi? Halbuki, biz öyrəşmişik polis insanın valideyni kimi bir şeydir, valideyn vuran yerdə gül bitər, heç vaxt buna görə rəis qovulmazdı. İndi isə qovurlar. Sanki bura Parisdir, Londondur, Berlindir.

Kənd təsərrüfatı naziri kəndə getmişdi! Televizorda özüm baxdım. Kəndlilərə deyirdi ki, baytarlarım sizin inəkləri yoxlayırmı, əgər yoxlamasalar xəbər verin, onlara mal iynəsi vuracağam.

Nəqliyyat naziri Neftçalada vətəndaşları qəbul edirdi. Doğrudur, Neftçalanın hansı nəqliyyat probleminin olması bizə məlum deyil və yaxşı olardı nəqliyyat naziri çökən Bakı avtovağzalında qəbul keçirsin. Bəlkə də elə zənn edib Neftçalada neft çalası var, satıb nazirliyin söküklərini yamayacaqdır. Hər halda, uğurlu addımdır - bundan qabaq nəqliyyat naziri ancaq İsveçrəyə gedirdi.

Bir deputatlığa namizəd Yasamalda 10 sutka həbs cəzası almış şəxsi azad etdirdi. Təsəvvür edin! Halbuki, qabaq BMT sədri gəlsə də onu buraxmazdılar, nəinki deputatxana spikeri. İndi isə namizəd adam buraxdırır! Tüküm biz-biz oldu. Bəziləri isə ürpəşdi.

Dövlət rəhbərliyi öz pulundan hər gün bazara nə qədər dollar atır ki, manat sabit qalsın, qiymətlər havaya uçub zəhmətkeşi incitməsin. Hər gün hakimiyyətin onlarla sadiq kadrları uca millətin yolunda qurban kəsilir, şaqqalanıb darvazadan asılır. Beş-on nəfər siyasi dustaq var, onları əfv sərəncamı da verilsə kompozisiya tamamlanardı, minnətdarlığımız daha da aşıb-daşardı. Ümid edirəm, nəinki ümid edirəm, hətta əminəm siyasi rəhbərlikdə buna da qüdrət çatacaqdır. Yeni Azərbaycanın çiçəklənməsini qoy həmin yolunu azmış gənclərimiz də öz gözləri ilə görsünlər, türmədən baxmasınlar.

İntəhası, adam qorxur ki, bu gedişlə bizdə kişilərin kişilərlə evlənməsinə də icazə veriləcəkdir.



# Bakı-Qərb münasibətləri bir həftə sonra: strategiyalar dəyişəcəkmi?

## Parlament seçkiləri tərəflərin "qırmızı xətt"ə nə dərəcədə yaxınlaşdığını göstərəcək; Rusiyanın bölgədə sürətlə fəallaşması, Gürcüstanın Moskvaya şübhəli reveransları demokratiya paytaxtlarını yeni və çevik qərarlar verməK zorunda qoyur...

**Noyabrın 1-nə sayılı günlər qaldı. Hər nə qədər deyilsə də ki, gələn bazar keçiriləcək seçkilər əvvəlkilərdən heç nə ilə fərqlənməyəcək və nəticələri artıq bəllidir, bununla belə, o, ən azından müəyyən siyasi mərhələnin başa çatmasını simvolizə edən olay kimi səciyyə daşıyır. Söhbət həm daxili siyasətdəki proseslərin hansısa mərhələsinin yekunundan, həm də və ələlxüsus, bu seçkilərin Qərblə münasibətlərə gətirəcəyi aydınlıqdan gedir.**

Şübhə yox ki, qarşıdakı illər hər mənada - istər daxili amillər olsun (neftin ucuzlaşması, manatı gözləyən təhlükələr, mümkün sosial-iqtisadi kolliziyalar), istərsə də xarici amillər toplusu (Rusiya faktoru, İŞİD və başqa radikal ekstremist ünsürlərdən gələn təhdidlər, transxəzər qaz layihələrinin taleyi, balans siyasətini davam etdirməyin çətinləşməsi və s.) baxımından hakimiyyət üçün kifayət qədər təlatümlü gözlənilir. Bu üzdən iqtidarın növbəti parlamentin əvvəlkindən daha sözəbaxan olmasında maraqlı olması dəqiqdir.

Böyük ehtimalla, seçki ərəfəsində MTN-də - hakimiyyətin əsas güc strukturunda aparılan təmizləmələr də yeni və mürəkkəb dövrə hakimiyyətin ön hazırlıqlarının tərkib hissəsidir. Bu qənaəti gücləndirən məqamlardan biri də odur ki, bu struktur çərçivəsində aparılan həbslər və təzə 1-ci müavin təyinatı sistem daxilində köklü islahatlardan çox, bu strukturda hakim qüvvəyə daha sadiq rəhbərlik formalaşdırmaq məramını xatırladır.

Hər halda, Mədət Quliyev Penitensiar Xidmətin rəisi postundan milli təhlükəsizlik nazirinin 1-ci müavini vəzifəsinə çox da yaxşı imiclə transfer olmayıb. Təkcə bir-iki faktı demək kifayətdir: onun dövründə, təkcə son 1 ildə türmələrdə ölkə ictimaiyyətini silkələyin qalmaqallı Lamiyə olayı yaşanıb, gənc dustaq Elşad Babayev zon əməkdaşları tərəfindən vəhşicəsinə öldürülüb və qanı batırılıb, üstəlik, işlə bağlı yeganə canlı şahid Yadigar Nuriyev də bir neçə həftə əvvəl müəmmalı şəkildə dünyasını dəyişib, bütövlükdə sistemdə işgəncə faktları artıb və s. Ancaq belə görünür, cənab Quliyevin bu keyfiyyəti deyil, hansısa vazkeçilməz başqa qabiliyyəti yeni posta təyinatı üçün əsas olub. Yəni sədaqət prinsipi.

*****

Beləliklə, MTN-də seçki ərəfəsində baş verənləri ən əvvəl hakim siyasi sistemin öz daxili dayaqlarını möhkəmlətmək istəyinin təzahürü kimi dəyərləndirmək lazım gəlir. Bunu həmçinin, yeni mərhələdə yürüdüləcək xarici siyasətin də bir anonsu saymaq olar. Çünki xarici siyasət daxili siyasətin davamı hesab edilir.

Cəmi bir həftə sonra - 1 noyabr seçkilərinin nəticələrinə Qərbin - ABŞ və Avropanın, demokratiya paytaxtlarının reaksiyasından bunun konturlarını görə biləcəyik. Bir məsələ var ki, rəsmi Bakı və Qərb yeni mərhələdə heç vaxt olmadığı qədər bir-birinə ehtiyac hiss edə bilər - əlbəttə ki, ilk növbədə bölgədə və onun ətrafında gedən proseslərdə Rusiyanın sürətlə artan roluna görə.

Doğrudur, son illərdə Bakı-Moskva münasibətlərində xeyli yaxınlaşma gedib. Ancaq "qırmızı xətt" deyilən anlayış da var ki, ondan o yana Azərbaycanın bütünlüklə Kremlin siyasi-hərbi təsir arealına girməsi, bununla da öz suberenliyini itirməsi gəlir.

Bunu kim bilməsə də rəsmi Bakı yaxşı dərk edir. Onu da dərk edir ki, Rusiya Azərbaycanın 1 nömrəli probleminin - Dağlıq Qarabağ məsələsinin həllində ciddi heç nə təklif eləmədən Azərbaycanı qazanmaq, öz hərbi qüvvələrini Dağlıq Qarabağa yeritmək istəyir.

Azərbaycan bu cür qorxulu perspektivdən yalnız Qərblə, xüsusən də ABŞ-la münasibətləri təcili qaydaya salmaqla, yeni Rusiyaya güclü alternativ qoymaqla qaça bilər. Bu mənada seçkidən sonra Bakının Qərb strategiyasında pozitivə doğru dəyişiklik istisna deyil. Bunun kulminasiya nöqtəsi isə Azərbaycan prezidentinin noyabrda Antalyada keçiriləcək G-20 sammitinə qatılması ola bilər.

*****

Söz yox ki, Qərb də situasiyanın fərqindədir və Azərbaycanla bağlı strategiyasına korrektə eləmək zorunda görünür. Çünki söhbət həm də Rusiyanın Xəzərə hövzəsində aktivləşməsi ucbatından transxəzər qaz layihələrinə - Avropanın Moskvadan qaz asılılığını minimuma endirəcək tranzit xətlərə yeni təhlükələrdən gedir. Belə vəziyyətdə ABŞ və Avropa qarşılıqlı əlaqələr üçün ikinci dərəcəli önəm kəsb edən mövzuları kənara qoyub Azərbaycan və Türkmənistanı Kremldən qorumaq imperativi ilə üzləşir.

ABŞ və Avropa Birliyini vəziyyətin ciddiliyindən çıxış edib tələsməyə vadar edən amillərdən biri də Gürcüstanın son vaxtlar Rusiyaya müəmmalı reveranslar eləməsi, Tiflisin Rusiya qazından asılılığını artıracaq addımlar atmağa hazırlaşması ilə bağlıdır...

*****

Bu xüsusda xarici analitiklərin fikirləri də maraqlıdır. Məsələn, Almaniya-Rusiya Forumunun elmi direktoru, politoloq Aleksandr Rar son vaxtlar Qərbin Cənubi Qafqaz regionuna, o sırada Qarabağ məsələsinə, Azərbaycan və Ermənistana diqqətinin azalmasının təkcə Qərbdə siyasi imkanların çatışmazlığı ilə əlaqəli olmadığını düşünür, həmçinin, iki ölkənin apardığı xarici siyasətə bağlayır.

Sitat: "İş ondadır ki, nə Ermənistan, nə də Azərbaycan "Şərq tərəfdaşlığı" proqramına Avropa Birliyinin istədiyi kimi lazımi diqqət və maraq göstərmədi. Ona görə də avropalıların maraqlar fokusu yerini AB ilə inteqrasiyanı dərinləşdirməkdə maraqlı olan və Assosiasiya sazişlərini imzalayan Ukrayna və Moldovaya doğru dəyişdi".

Politoloqa görə, bu səbəbdən Qarabağ münaqişəsinin nizamlanması Avropa maraqlarının ucqarlarına atılıb: "Əlbəttə ki, konfliktin qızışmasının Avropaya dəxli olacaq. Ancaq bu gün Avropanın özündə kəskin problemlər var: Yunanıstan, qaçqınlar, maliyyə və Ukrayna böhranları aradan qaldırılmayıb. Yekunda belə mənzərə alınır ki, Avropa hər yerdə yanğınsöndürən ola bilməz. Odur ki, ona yalnız Azərbaycanla Ermənistanın öz aralarında razılığa gəlməsinə ümid eləmək qalır".

Bununla belə ekspert hesab edir ki, Cənubi Qafqazla əlaqələrin kəsilməsindən söhbət gedə bilməz: "Avropa Birliyinin nümayəndələri onsuz da daim Bakıya səfər edirlər. Axı Azərbaycan Avropaya Avropa energetik siyasətini reallaşdırmaq üçün lazımdır. Yeni Avropa Qərb siyasi dəyərlərini qəbul eləmək istəməyən ölkələrdə baş verənlərə həmişə tənqidi yanaşacaq. Ola bilsin, bu ölkələrdə hətta heç vaxt Avropanın arzuladığı Qərb demokratik sistemini qurulmasın, bununla belə, vəziyyəti dramatikləşdirməyə, əlaqələrin kəsilməsindən danışmağa da dəymir".

*****

Ekspertin sözlərindən də görmək olar ki, Qərb regionun açar ölkəsi olan və Rusiyaya tərəf yuvarlanmaqda olan Azərbaycanın xilası üçün öz strategiyasına düzəlişlər eləmək imperativini hiss edir. Bəs, düzəliş olacaqmı?

Noyabrın 1-dən sonra yəqin ki, ilkin simptomlar məlum olacaq. Bir şey bəllidir ki, bunun tez baş verməsi üçün Bakı da öz növbəsində xarici siyasət strategiyasına sərt geosiyasi reallıqlardan doğan düzəlişlər eləməlidir.

❑ **Analitik xidmət**

**Rusiya prezidenti Suriya böhranının həlli ilə bağlı yeni təklif irəli sürüb. Hələlik Moskvanın yeni variantına dünya ölkələrinin hansı reaksiyanı verəcəyi məlum deyil. Bu plan Suriya prezidenti Bəşər Əsədin Moskva səfəri zamanı açıqlanıb. Yalnız o məlumdur ki, Suriya müxalifəti Bəşər Əsədlə siyasi keçid prosesini rədd edib.**



# Putinin 5 maddəlik Suriya planı alınacaqmı?

## Rusiya Suriya böhranında güclü tərəfə çevrilir, Qərb isə ənənəvi mövqelərini bərpa etməyə çalışır...

Rusiya mediasının məlumatına görə, Putin təklifini Kremldə bu həftənin birinci günü Əsədlə keçirdiyi görüşdən sonra açıqlayıb. Daha doğrusu, Əsədlə müzakirədən sonra hazırlanıb. Bu baxımdan indiki zamanda bu planın beynəlxalq güclər, əsasən də ABŞ tərəfindən qəbul olunması inandırıcı görünmür. Ancaq Putinin tutumu onu deməyə əsas verir ki, Rusiya beynəlxalq ictimai rəyi bu plana dəstək verməsi üçün inandırmağa çalışacaq. Məsələ ondadır ki, son aylarda Avropada da Suriya mövzusunda fikir ayrılıqları var.

Plana gəlincə, o, ilk növbədə Suriyada iqtidar və müxalifət arasında dialoqun başlanmasını nəzərdə tutur. Eyni zamanda bu prosesə xarici müdaxilənin dayandırılmasını təklif edir. Həmçinin, planın birinci bəndində bütün qüvvələrin terrora qarşı birgə mübarizəsini təklif olunur. Bu sırada Suriya ordusu ilə yanaşı Milli Müdafiə Qüvvələri, kürt silahlıları və terrora qarşı olan müxalif qüvvələr qeyd olunur.

Planın ikinci maddəsində mübahisəli bölgələrdə dövlət təşkilatları və qurumların gücləndirilməsi və siyasi həll prosesinin başladılması üçün gərəkli şərtlərin yaradılması vurğulanır.

Üçüncü maddədə isə İslam alimləri və dini liderlərin müzakirələr qatılması, böhranın həlli prosesində iştirakı təklif olunur. Bununla da danışıqlar prosesinin dərinləşdirilməsi nəzərdə tutulur.

Planın dördüncü maddəsində Suriyada iqtisadi və sosial sahədə yenidənqurma üçün yol xəritəsinin hazırlanması təklif olunur. Xüsusən də savaş bölgələrində məktəb, xəstəxana, evlər və sair infrastrukturun bərpası nəzərdə tutulur.

Beşinci maddə isə xarici ölkələrin, həmçinin beynəlxalq maliyyə qurumlarının Suriyaya yardım etməsini təklif edir.

Planın detalları haqda məlumat verilmir. Ancaq ötən gün Sergey Lavrovun Səudiyyə Ərəbistanı xarici işlər naziri Adil əl-Cubeyr ilə görüşdən sonra Suriya müxaliflərinə İŞİD-ə qarşı mübarizədə havadan dəstək verə biləcəklərini bəyan etməsi Putinin planlı ilə bağlı Yaxın Şərqin aparıcı dövlətləri ilə danışıqların aparıldığını göstərir. Aydın məsələdir ki, ABŞ və onun bölgə müttəfiqlərinin Suriyada öz maraqları var. Rusiyanın Suriya planı ilə eyni günlərdə Səudiyyə kralı ilə ABŞ dövlət katibinin Suriya müxalifətinə dəstək mövzusuna anlaşması kəsişən maraqların təzahürüdür. Suriya məsələsində köklü dəyişikliyin olmasını və bunun labüd olduğunu hər kəs anlayır. Ancaq hər kəs yeni Suriyadan daha çox pay, yağlı tikə əldə etmək istəyir.

Rusiya son illərdə ilk dəfə olaraq Suriya məsələsində pərdə arxasından çıxdı və əsas oyunçu olduğunu göstərdi. Rusların əməliyyatları artıq Qərbi də hərəkətə gətirib. İndi ABŞ-da da anlayırlar ki, Rusiyanın kəskin müdaxiləsi qüvvələr nisbətini Əsədin xeyrinə dəyişdirdikdən sonra artıq Qərbin rolu tamamilə azalacaq. Regionun ərəb ölkələri isə reallıqla barışıb ruslarla anlaşacaqlar. Təbii ki, söhbət Əsədin deyil, Suriyanın taleyindən gedir. Əgər ruslar ilin sonunadək maraqlı və ya belə desək, iştirakçı dövlətlərin böyük bir qismini təmin edəcək taktika ortaya qoysalar, aydın məsələdir ki, bir çox dövlətlər anlaşmaya gedəcəklər.

Ancaq belə anlaşmanın olması üçün hələlik ruslara güclü Əsəd lazımdır. Bu səbəbdən Suriya ordusu gücləndirilir. Amerikalıların ötən gün hərbi yardımlarının "yanlışlıqla" kürdlərin əlinə keçməsi onu göstərir ki, Vaşinqton kürdlərin Rusiyanın nəzarətinə keçməsindən çox ciddi narahatdır.

Bu səbəbdən də bölgədə hər kəs fəallaşıb. İlin sonuna isə az qalıb. Bəşər Əsədin güclənməsi, xüsusən də ölkənin ikinci böyük şəhəri (sənaye paytaxtı - K.R.) Hələbin qalan hissəsini ələ keçirməsi savaşın taleyini psixoloji olaraq həll edə bilər. Ruslar isə o zaman danışıqlar masasına güclü Əsədlə oturub öz şərtlərini diktə edə biləcəklər. Bölgədə dövlət olmayan ən təsirli gücə çevrilmiş kürdlərin Rusiyaya reverans etməsi ABŞ-ı narahat edir.

Putin artıq planının birinci hissəsini həyata keçirir. Suriya ordusu, kürdlər və könüllü birliklərlə birlikdə terror qruplarına qarşı savaşır. Eyni zamanda digər qruplara da qapı açır. Bu isə dünənə qədər məntəqədə əsas diktəedici güc olan Qərbin siyasi və hərbi cəhətdən mövqelərini zəiflədir. Bu mənada Suriyada savaşın qarşıdakı aylarda daha da şiddətlənəcəyini düşünməyə əsas var. Belə demək olarsa Suriya Vyetnam və Əfqanıstandan sonra ruslarla amerikalıların növbəti savaş meydanına çevrilir.

❑ **KƏNAN**

# Münaqişələrin həlli açarları nədən Rusiyanın əlinə keçir?

## Politoloq Qabil Hüseynli sirləri açıqladı

**Postsovet məkanının ardınca, yaxın Şərqdəki münaqişələrdə də açar rolunu Rusiya öz üzərinə götürməyə başlayıb. Rusiyanın Suriya böhranında güclü tərəfə çevrilir və artıq bütün dünya bu məsələdə Moskva ilə razılaşma yollarını axtarır. Artıq dünya mediası və siyasətçiləri Suriya böhranının da həlli açarının məhz Rusiyada olduğunu qeyd edir.**

Politoloq Qabil Hüseynli hesab edir ki, Suriya problemi də daxil bir çox münaqişələrin həlli açarının Rusiyada olması, Rusiyanın siyasətinin, taktikasının düzgün olması ilə bağlı iddialar yanlışdır: "Mən güman etmirəm ki, Rusiyanın uğurlu siyasəti nəticəsində problemlərin açarı bu ölkənin əlinə keçir. Rusiyanın yaxın Şərqdə, Suriyada fəallaşması daha çox Amerikanın yeritdiyi astagəl siyasətin, hətta mən deyərdim bəzi hallarda ABŞ-ın maraqları ilə daban-dabana zidd siyasətinin nəticəsində baş verir. ABŞ İraqdan öz qoşunlarını çıxarmasaydı, regionda nə Rusiya, nə də İŞİD meydan sulaya biləcəkdi. Üstəlik, ABŞ Suriya azadlıq ordusunun yaradılması və formalaşdırılmasında çox zəif formada iştirak etdi və həmişə Türkiyə ilə didişmə şəraitində Suriya azadlıq ordusunun yaradılmasına, təlim keçməsinə zəif dəstək verdi. Özü də bu dəstək qısamüddətli oldu. Suriya azadlıq ordusunun mübarizə taktikasına Türkiyənin özü də axıra qədər düzgün



**Qabil Hüseynli**

rəhbərlik edə bilmədi. Amerika və onun müttəfiqləri Suriya cəbhəsindən qoşunlarını geri çəkmələri barədə bəyanat verdilər. Bu azmış kimi Türkiyə sərhədində qurulmuş Petriot tipli raketlərin hamısını söküb apardılar. Beləliklə, Rusiyanın bölgəyə daxil olması və əl-qol açması üçün şərait yetişdi. Bu və digər amillər Suriya problemində də Rusiyanın söz sahibinə çevrilməsinə gətirib çıxardı. Yəni belə demək mümkündürsə, bir sıra münaqişələrin həlli açarını Rusiyaya ABŞ-ın və müttəfiqlərinin astagəl, yanlış siyasəti vermiş olur. Bu, düzgün taktika deyil. ABŞ və müttəfiqlərinin bax, bu yanlış taktikası Rusiyanın dünyadakı nüfuzunu artırır, Rusiyanı söz sahibinə çevirir. Boş qoyulan meydanı bölgədə Rusiya tutur".

Bununla belə, Q.Hüseynli hesab edir ki, Rusiyanın Yaxın Şərq bataqlığında təkbaşına uğur qazanması asan məsələ deyil: "Bölgədə vəziyyət getdikcə daha da pisləşəcək və Rusiya üçün elə də asan olmayacaq. Artıq ABŞ müdafiə naziri dünəndən bildirir ki, İraqa, Suriyaya quru qoşunları yeridəcəklər. Belə görünür ki, ABŞ nəhayət, bölgəni tərk etmək və Rusiyaya buraxmaq kimi yanlışlığını düzəltmək istəyir. Ona görə də belə söyləmək mümkündür ki, Yaxın Şərqdə məsələlər hələ başa çatmayıb".

❑ **Etibar SEYİDAĞA**

# Paraqvayda olsa, "vay-vay" deyərdik...



**Xalid KAZIMLI**

**Hər şey hamıya çox adi gəlir. İnsanlar nə boyda faciələrin içində olduqlarının fərqində deyillər. Sanki elə bu cür də olmalıymış. Uzun illər öncə biz bu gün ölkəmizdə baş verən hadisələrin eynisini Meksika, Çili, Peru, Honduras, Kolumbiya, Paraqvay və başqa ölkələrdə olması barədə oxuyar, müvafiq məzmunlu filmlərə baxar, dəhşətə gələr, "vay, vay" deyərdik.**

Fikirləşərdik ki, bu ölkələrin xalqı necə də məzlumdur, yazıqdır, işsizlik, kasıbçılıqla yanaşı, hüdudsuz səlahiyyətlərə sahiblənmiş odioz generalların əlində əsir-yesirdir.

Həmin bədii, sənədli, publisistik əsərlər bizdə siyasi rəqibləri oğurlayan, həbs edən, özlərindən olmayan iş adamlarını soyub-talayan, silah qaçaqçılığıyla, insan alveriylə, narkotik ticarəti ilə məşğul olan generalların necə dəhşətli bir xunta rejimi qurması barədə dolğun rəy yaradardı.

Amma bu gün bu hadisələrin içindəyik və dəhşətə gələn yoxdur, varsa da, çox azdır.

Bu, ona görə belədir ki, biz uzun illər boyunca bu duruma alışmışıq, alışdırılmışıq. Ətrafımızı sarmış neqativ hallar, əyintilər, pozuntular normaya çevrilib. Hətta bir ovuc elitar zümrənin ən ağır cinayətlər (narkotik maddə alveri, qətl) törədərək cəzasız qalması da artıq adi hal kimi qarşılanır.

Bir nazirin oğlu və ya ikinci manqadan olan yaxın qohumları jurnalisti vəhşicəsinə döydürə, ölkədə böyük bir qalmaqal yarada, sonra da altından asanca çıxa bilirlər.

Hər gün neçə-neçə adamn cibindən, hətta anus dəliyindən 9-10 qram narkotik maddənin tapılb çıxarıldığı ölkədə hansısa yüksək vəzifəli şəxs sərhəddən 3 ton maye heroin keçirə bilir, qonşu dövlətin hüquq-mühafizə orqanları tərəfindən ifşa olunur, amma öz ölkəsində adı belə çəkilmir.

Dövlət başçısına şəxsi sədaqətsizliyi, daha dorusu, xəyanəti üzündən vəzifəsindən götürülən, həbsə alınan nazirlərin məhkəməsndə dövlət ittihamnaməsi oxunarkən sadalanan mülklərin, varidatın siyahısını qoşa qəzet səhifələri tutmur. Amma adam liderinə sadiq olsaydı, indiyə bu varidatı ikiyə qatlamış olacaqdı.

Bu kimi müdhiş faktlardan çox saymaq olar. Hamı detalları ilə olmasa da, ümumi şəkildə hər şeyi bilir.

Hər kəs bilir ki, bu ölkədə xalqı və dövləti talamaq imkanı olanların hər biri bunu edir - biri az, biri orta, biri çox, hər kəs öz ranqına görə.

Hamı bilir ki, bu ölkənin məhkəmələrində pul basıb qan batırmaq, eləcə də pul gücünə məsum insanları şərlətdirib türmədə yatırtmaq mümkündür.

Hər kəsə əyandır ki, şəhərin küçələrində şütüyən 200 minlik avtomobillər, şəhərin kənarındakı milyonluq (2-20 milyon dollarlıq) villalar oğurluq və haram pullarla əldə olunub.

Böyük oğurluqların və böyük talançılığın leqallaşdığı ölkədə bütün bunlar heç kəsə qəribə gəlmir, hətta daha pisi odur ki, insanlar bu böyük, mütəşəkkil cinayət qruplarının üzvü olmağa çalışırlar. Bundan ötrü irimebləğli rüşvət verməyə də hazırdırlar - nəqliyyat, vergi müfəttişi, hakim, polis, ədliyyə işçisi, gömrükçü olub xalqı soymaq üçün.

Hər növ cinayətlərin leqallaşdığına görədir ki, bu ölkədə generalların girovgötürmə, xərac tələbetmə, şantaja əlatma kimi cinayət əməlləri törətməsi və ifşa olunması xalqın tükünü tərpətmir. Axı generallar başqa bir şey etməyiblər, hamı necə olubsa, onlar da elə olublar.

Ölkənin idarəolunma üsulunu klassik xunta vərdişlərindən artlayaraq sağlam, normal, qanuni müstəviyə oturtmaq çətin olacaq. Bundan ötrü inqilabi tədbirlər görmək, sərt rejim bərqərar etmək lazımdır. Bu, kütləvi cəzalandırmalar olmadan başa gələn iş deyil.

Həm də kim kimi cəzalandıracaq? Cəza mexanizmi tam şəkildə cəzalandırılmalı olan adamların əlindədir və onlar bu işi bir yerə qədər apara bilərlər, su öz boğazlarına çıxanda, təbii ki, şlüzü bağlayacaqlar.

Qanunların pis-yaxşı işlədiyi, qanunçuluğa az-çox riayət olunduğu sovet dövründə bu cür ağır cinayətlərə bulaşmış generalları mütləq güllələyərdilər. Bizdə isə onların cəzası təxminən qonşunun hinindən toyuq oğurlayan oğrunun cəzası qədər olacaq və bir neçə ildən sonra azadlığa çıxacaqlar.

Beləcə, köhnə oğruları yeni oğrular əvəz edəcək - ənədəzəni aşmasalar, xəyanət eləməsələr, zavala gəlməyəcəkər.

**Baxış bucağı**

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanla Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin qonşuluğunda görüşdük. Müsahibimi bu ünvana bağlayan tellərdən danışmaq artıqdır. İlham bəy bir zamanlar reytinqi ilə "meydan oxuyan" bu ali təhsil müəssisəsinin avtomatika fakültəsində təhsil alıb, daha sonra "Azneft" istehsalat birliyində kəşfiyyat quyuları üzrə əməliyyat operatoru vəzifəsində çalışıb. Elə ölkənin taleyində həlledici rola malik olan neft-qaz məsələlərindən, islahat gözləntilərindən, gömrüklə bağlı yeniliklərdən bəhs edən söhbətimizə universitetlə bağlı düşüncələrini bölüşməklə körpü saldı:**

# "2016-cı ildə Azərbaycanı ürəkaçan mənzərə gözləmir"

## İlham Şaban: "Rusiya qazının Gürcüstan bazarında hegemonluğundan söhbət gedə bilməz..."

- Neft Akademiyasi artıq Dövlət Neft və Sənaye Universitetinə transformasiya edilib və onun rektoru nə neftçi, nə kimyaçı nə neft sənayesinin avtomatikası üzrə olan mütəxəssis deyil. O, metallurqdur. Mən bu təhsil ocağında oxuyanda onunla fəxr edirdim, elə hər bir mənada... Bakıda hansısa bir təhsil ocağı "AZİ" ilə elmdə, olimpiadalarda, mədəni-kütləvi aktivlikdə, idmanda müqayisə oluna bilərdimi? Bunun üçün onların sadəcə imkanları yox idi. Çünki o zamanın Neft və Kimya İnstitutu bütün SSRİ-də məşhur idi, burada 3 minə yaxın xarici tələbə təhsil alırdı. 1988-ci ilin aprelində bu instituta Moskvadan rəngli displeyli İBM kompüteri verilmişdi ki, o zaman heç Mərkəzi Komitədə yox idi. Təbii ki, təhsilin səviyyəsi də yüksək idi. Burada qayda-qanun rektor İbrahimov olanda dillər əzbəri səviyyəsində idi. Hətta 80-ci illərdə "KVN"-də belə bir fraza vardı ki, SSRİ-də 3 yerdə siqaret çəkməklə mübarizə tam həllini tapıb: 1-ci Aeroflotda, 2-ci Metropolitendə və AZİNEFTEXİNM-də. Professorlar belə 4-cü mərtəbədən düşüb 1-ci mərtəbədə, xüsusi ayrılmış yerdə siqaret çəkərdilər. Rəqəmsal lövhələrdə tələbə-müəllim heyəti lazim olan informasiya ilə operativ təchiz edilərdi. O dövr üçün bunlar tamamilə yenilik idi və elə institutun laboratoriyalarinda hazirlanırdı. Hələ sizə institutda fəaliyyət göstərən lokal TV-dən demirəm. Mən özüm ilk məqaləmlərimi institut qəzetində yazmışam. Yəni aktiv tələbə qarşısında çoxlu imkanlar vardı. Ancaq 2012-ci ildən Bakı Ali Neft Fəaliyyəti yarandı və bununla da Neft Akademiyasının neft yönümündə inkişaf perspektivləri tormozlandı. Çünki SOCAR-a lazım olacaq kadrlar artıq yeni ali təhsil məktəbində yetişdiriləcək. Bundan əlavə BP şirkəti özünə lazım olan kadrları çoxdan özünün inandığı özəl universitetlərdən yığır.

***- İlham bəy, qaz mövzusuna keçid edək. Doğrudanmı, Azərbaycan qazı artıq özü üçün yetərli deyil ki, Gürcüstan bazarındakı mövqelərini də itirmək təhlükəsi yaranıb?***

- Əvvəla ondan başlayaq ki, çox təəssüf ki, Azərbaycanın rəsmi şəxsləri bu məsələyə operativ münasibət bildirmədilər. Gürcüstanda isə bir-birinin ardınca yeni-yeni xəbərlər peyda olmağa başladı. Ancaq cəmiyyətin gözündən o da yayınmırdı ki, qısa müddətdə Bakıya rəsmi Tiflisdən yüksək çinli məmurlar səfər edir. Görüşlərlə bağlı geniş məlumatın verilməməsi isə şübhələri daha da artırırdı. Nəticədə regional mətbuatda müxtəlif səpkili materiallar dərc edilirdi ki, bunlar da çox zaman reallığı əks etdirmirdi. Məsələni mürəkkəbləşdirən digər amil isə bir qədər sonra Rusiya mətbuatında qaz mövzusunda çap edilən məlumatların sürətlə Gürcüstan və Azərbaycan mediasında tirajlanması idi. Təbii ki, burada ortada olan maraqlar idi. Ancaq gəlin görək reallıq nə yerdədir. Gürcüstanın energetika naziri Kaza Kaladze ilk dəfə mediaya sentyabrda açıqlama verdi ki, "Qazprom" nümayəndələri ilə Brüsseldə görüş keçiriblər. Görüşdə Gürcüstandan üçüncü ölkəyə qaz həcmlərinin ötürülməsi və Gürcüstana Rusiya qazının kommersiya idxalı məsələləri müzakirə edilib. Qeyd edim ki, görüşün keçirilməsi heç də Gürcüstan tərəfinin istəyi ilə baş tutmamışdı. Bu "Qazprom"un xahişi ilə reallaşmışdı. Səbəbi isə onunla əlaqəli idi ki, Ermənistandakı Razdan istilik-elektrik stansiyasının 5-ci enerji blokunun 2016-cı ildən tam gücü ilə işə salınması planlaşdırılır. Hazırda bu heç 30% layihə gücündə belə çalışmır. Ermənistanın buna getməsi isə gələn il qışın sərt keçməsi proqnozları yönümündə təbii qaza olan tələbatın artımı ilə əlaqələndirilir. Onu deyim ki, artıq bir çox ölkələr gələn ilin qış mövsümünə ciddi hazırlıq görürlər, çünki hidrometroloji proqnozlar, həqiqətən, sərt qış anonsu ediblər. Belə olan tərzdə Gürcüstanın da qaza olan tələbatı 10%-ə qədər artmalıdır. Ancaq Azərbaycan Gürcüstanı xəbərdar edib ki, belə olan halda onun artacaq tələbatını ödəyə bilməyəcək. Bir daha qeyd edirəm Gürcüstanın artan tələbatını - bu təqribən 300 milyon kubmetrə qədər ola bilər. Çünki Azərbaycanın daxilində qaz tələbatı da obyektiv səbəblər üzündən artır, ikincisi "Şahdəniz" konsorsiumu daha çox təbii qazı Türkiyə bazarına ötürməkdə maraqlıdır, çünki orada qiymətlər daha bahadır və bu, xarici şirkətlərin marağındadır, nəinki Gürcüstana regional qiymətə müəyyən qaz həcmlərini yönəltməyə. Onsuz da bu həcmlərin bir qismi Gürcüstana 2013-cü ilin yayından yönəldilir.

***- Deməli Gürcüstan buna sırf iqtisadi məqsədlə gedir və burada siyasi motivlər yoxdur?***



- Rəsmi Tiflis də situasiyanı gözəl dərk edir. Onun Rusiya ilə diplomatik əlaqələri 2008-ci ilin avqustundan kəsilib, iqtisadi əlaqələri çox məhduddur. Və ən əsası bu iki qonşu dövlətin dünyaya baxışları diametral fərqlənir və son "gurultulu" hadisələr zamanı beynəlxalq təşkilatlarda səsvermə zamanı Gürcüstan Rusiyanın əleyhinə səs verib. Bunları Kreml yaddaşa yazır və enerji alqı-satqısı zamanı təbii ki, "yada salır". Ona görə də Tiflis almaq istədiyi Rusiya qazının qiymətini mümkün qədər "yumşaltmaq" istəyir və bu cür manevrlər edir. Ancaq bir şeyi Gürcüstan hökumətində də, "Qazprom"da da yaxşı bilirlər - Rusiya qazının bu bazarda hegemonluğundan söhbət gedə bilməz. Belə ki, 2016-cı ildə Gürcüstan-Rusiya qaz işbirliyi başlayacağı zamandan cəmi 3 il sonra "Şahdəniz-2" layihəsinin həcmlərinin artması ilə yenidən "Qazprom"un kommersiya həcmlərindən imtina gündəmə gələ bilər. Çünki Azərbaycan qazının nəqlindən Gürcüstan təqribən 1 milyard kubmetr tranzit alacaq. Bu isə onun istehlak həcmlərinin o zaman üçün 45%-ni təşkil etməlidir.

***- Bir məsələnin düyününü müəyyən qədər də olsa açdıq. Bəs neft aləmində nə dəyişiklər var?***

- Ondan başlayaq ki, cari il üçün beynəlxalq maliyyə qurumlarının və enerji agentliklərinin ilin əvvəlində verdikləri optimist proqnoz Brent markalı neftin bir bareli üçün 57 dollar, normal halda - 55 və neqativ variantda 53 dollara hesablanmışdı. Ancaq ilin ikinci rübündə neft qiymətləri yüksək həddə oldu - maksimal qiymət 68 dollara qədər yüksəldi. Nəticədə ilin birinci yarısında Azərbaycan neftinin orta ixrac qiyməti maliyyə nazirliyinin rəsmi açıqlamasına görə, 59,4 dollar təşkil etdi. Brent markalı neft üçün isə 57,5 dollar. Bu, həqiqətən qlobal bazar üçün yaxşı bir məlumat idi, hasilat şirkətlərinin çoxusu özlərinin büdcəsini 50 dollardan planlaşdırmışdılar və gəlirlik səviyyəsini qoruya bilirdilər. Ancaq III rüb başlayar-başlamaz bazarda qiymətlərin enməsi prosesi başladı. Bu isə İran faktoru ilə bağlı idi. Belə ki, 14 iyulda Vyanada rəsmi Tehran nəhayət ki, Qərb nümayəndə heyəti ilə nüvə proqramı ilə bağlı razılıq sazişini imzaladı və bu bazarlara kifayət qədər təsir etdi. Bazarlara daha böyük neqativ hadisə isə avqust ayında Çindən vurulan zərbə oldu - bu ölkənin fond birjası sözün əsil mənasında "çökdü", daha sonra milli valyutası dəyərsizləşdi və nəhayət, Çin iqtisadiyyatının azalma tempi təkcə nefti deyil, digər xammal bazarlarına da - dəmir, alüminium, kömür, mis və s. - öz neqativ təsirini büruzə verdi. Avqust ayının üçüncü ongünlüyündə Brent markalı neft 42 dollara qədər ucuzlaşdı. III rübdə Azərbaycan neftinin orta ixrac qiyməti 48,7 dollara qədər ucuzlaşdı. Yəni ilin birinci yarısı ilə müqayisədə qiymətlərdə 18% azalma müşahidə olunub. Bu faktın özü bir daha onu göstərir ki, xammal bazarı nə dərəcədə qeyri-stabildir. İqtisadiyyatın bir xammaldan asılı olması bu mənada çox risklidir.

***- Necə bilirsiniz, qiymət baxımından hökumətin pozitiv proqnozları özünü doğruldacaqmı?***

- Hökumət neftin qiymətinin tezliklə artmasına əvvəlcə ümid edirdi. Yadınızdadırmı, il boyu həm Dövlət Neft Şirkəti rəhbərliyi, həm energetika nazirliyi rəsmiləri, həm də hökumət üzvləri necə nikbin açıqlamalar verirdilər: tezliklə neft 80-90 dollar qiymətə çatacaq, hətta bir az əvvəl 100 dollarlıq həddi keçəcəyinə cəmiyyəti əmin etmək istəyirdilər. Mənə elə gəlir ki, bu da 2009-cu ildə yaşanan ssenarinin təsirindən qaynaqlanırdı. O zaman neft 148 dollardan 6 ay müddətində 39 dollara kimi endi və cəmi 1 il sonra yenidən bazarda öz mevqeyini bərpa etməyə müvəffəq oldu. Ancaq indi situasiya bambaşqadır. Belə ki, 1995-2004-cü illərdə dünya üzrə neft şirkətlərinin kəşfiyyat işlərinə ümumi investisiyaları 1 trilyon dollar olmuşdusa, 2005-2014-cü illərdə bu göstərici 3,2 trilyon təşkil etmişdi. Nəticədə çıxarıla biləcək ehtiyatlar son 10 ildə dəfələrlə artmışdı. Bundan əlavə dünyanın ən böyük istehlak bazalarında ciddi keyfiyyət dəyişikliyi baş vermişdi - yəni Avropa daha istehlakı artırmırdı, o cümlədən ABŞ - dünyanın ən qlobal istehlakçılarından biri - öz istehsalını ildən ilə artırmaq yolunda fantastik uğurlara imza atırdı. Dünyada neftin sənaye üsulu ilə çıxarılmağa başlanmasından - 1871-ci ildən indiyə qədər hələ heç bir ölkə dalbadal 3 il gündəlik neft hasilatını 1 milyon bareldən çox artırmağa nail olmayıb. BP WORLD STATISTICAL REVIEW-in məlumatına görə, 2014-cü ildə ABŞ-da gündəlik neft hasilatı artımı rekord həddə - 1,6 milyon barel olub. Bu isə, təbii ki, şist neft yataqlarında qazılan quyuların hesabına əldə edilib. Rusiya və Səudiyyə Ərəbistanı elə hesab edirdilər ki, neftin qiyməti aşağı düşən kimi ABŞ-da neft hasilatı çökəcək, çünki şist quyuların rentabelliyi buna imkan verməyəcək. Həqiqətən də, məntiq bunu tələb edir. Ancaq qiymət aşağı endikcə, quyuların sayı təqribən 1000 ədəddən çox azalsa da, ABŞ-da neft hasilatında kifayət qədər azalma baş vermədi.

***- Bunun sirri nədəydi?***

- BP şirkətinin iqtisadçısı Vladimir Drebentsovun izahına görə, bunun əsas səbəbi, ABŞ-da mütərəqqi texnologiyaların tətbiqi sayəsində istismar quyularının məhsuldarlığının 5-7 dəfə artırılması idi. Ona görə də bu sayda quyunun istismar fondundan müvəqqəti çıxarılması ABŞ-da hasilata elə də təsir etmədi. İkinci faktor isə layların neftverimliyinin artırılması yönümündə atılan texnologiyaların tətbiqidir. Nəticədə ABŞ bazarına yönələn neft digər bazarlarda özünə müştəri axtarmalı olur və neft qiymətdən düşür. Bu baxımdan hazırda ABŞ-ın dünya neft bazarına və təbii ki, qiymətlərinə təsiri OPEK ölkələrindən daha effektlidir.

***- Növbəti ilin daha böhranlı olacağı proqnozlaşdırılır. 2016-cı ilin neft qiymətləri necə ola bilər?***

- Təəssüf ki, burada hələ ürəkaçan bir mənzərə yoxdur. Bunu oktyabrın 21-də Vyanada OPEK-in keçirdiyi texniki iclası bir daha nümayiş etdirdi. Belə ki, OPEK bu təşkilata üzv olmayan 8 neft ölkəsinə dəvət göndərsə də, Azərbaycan, Oman və Norveç iclasa qatılmadılar. Rusiya iclasa qatılsa da, hasilatı azaltmaqda maraqlı olmadığını bildirdi, çünki başa düşür ki, bu resursdan çox asılıdır və bazarda onun yerini çox tez tuta bilərlər. Ümumiyyətlə, belə bir qorxu hər bir dövlətdə var. Çünki İranın da qlobal bazara daxil olması ilə rəqabətin daha da güclənməsi proqnoz edilir. Başqa bir oyunçu isə İraqdır - onun ümumiyyətlə, heç kəs qarşısında öhdəliyi yoxdur: buradakı xarici şirkətlər hasil etdikləri neftin həcminə görə pay alırlar və buna görə də hasilatın artırılmasında daim maraqlıdırlar.

***P.S.** Müsahibənin tam versiyası ilə müsavat.com saytında tanış ola bilərsiniz.*

**❑ Elşad PAŞASOY**
**FOTO: "YM"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**Sabah - oktyabrın 27-də Azərbaycan və Ermənistan prezidentləri arasında son birbaşa görüşdən 1 il ötəcək. Fransa prezidenti Fransua Ollandın təşəbbüsü ilə Parisdə - Yelisey sarayında, Minsk Qrupu həmsədrlərinin iştirakı ilə reallaşan sonuncu görüş də, əfsuslar olsun ki, Qarabağ məsələsində dönüşə gətirmədi. Ümidlər növbəti dəfə dəfn olundu və üstəlik, sülh prosesində ən uzun fasilə başladı.**
**Belə olacağı əslində təəccüblü deyildi. Ən azı ona görə ki, Paris təmasları ilə eyni gündə Azərbaycanın işğal altındakı Dağlıq Qarabağda - Xankəndidə azərbaycanlı (kəlbəcərli) girovlar - Dilqəm Əsgərov və Şahbaz Quliyev üzərində saxta məhkəmə prosesinə start verilmişdi.**



# Qərb Qarabağ problemini unudub - iddia, yoxsa reallıq?

## Əcnəbi analitiklərin öz arqumentləri var; prezidentlərin son Paris görüşündən bir il ötür, konflikt, nəhayət, real həll müstəvisinə keçəcəkmi? Türk politoloq: “Qarabağ münaqişəsi - gec partlayan bombadır...”

Bu - əslində bir mesaj idi ki, işğalçı Ermənistan danışıqlar prosesində irəliləyiş olmasını istəmir - əlbəttə ki, Kremlin dirijor çubuğu və göstərişi ilə.

Beləcə, Güney Qafqazın ən “yaşlı” münaqişəsini dinc vasitələrlə tarixin arxivinə vermək üçün qiymətli daha bir il itirilmiş oldu. Adekvat olaraq bölgədə yeni müharibə riskləri artdı və artmaqda davam edir.

*****

Hazırda konflikt ətrafında kifayət qədər mürəkkəb situasiya formalaşıb. Bu situasiyaya ağırlıq verən həm də Ukraynaya, Suriyaya görə gərginləşən Rusiya-ABŞ (Qərb) münasibətləridir. Bir sıra təhlilçilərin qənaətincə, bu münasibətlərdə yaxın perspektiv üçün yəqinlik hasil edilməyincə Qarabağ məsələsini də real həll müstəvisinə keçirmək mümkün olmayacaq.

Bu mənada problem ətrafında durğunluğun hələ bir müddət davam edəcəyi ehtimalı böyükdür. Təbii ki, bunun başqa səbəbləri də yox deyil. Misal üçün, Qərbin - ABŞ və Avropa Birliyinin başının daha çox Suriyaya, İŞİD-ə qarışması. Görünür, bu və digər səbəblərdən Qərbin ekspert dairələrində Qarabağ probleminin Qərb üçün unudulduğu fikri dominant olmağa başlayıb. Belə hesab edilir ki, Qərbin müxtəlif səbəblərdən həm Azərbaycan, həm də Ermənistanla aktiv əməkdaşlığa marağı itməkdə, konfliktin həllində yeganə vasitəçi kimi Rusiya saxlanmaqdadır.

*****

Kanadadakı Manitoba Universitetinin Politologiya və geosiyasi tədqiqatlar fakültəsinin professoru Radika Desai hesab edir ki, əvvəllər hər iki respublikaya münasibətdə Qərb standart “güclü rəqiblə qarşılaşanda qonşu ölkələri öz tərəfinə çəkmək” siyasəti yürüdürdüsə, bu gün Qərbin nəinki Ukrayna, həm də Güney Qafqaza yanaşmasında özünəməxsus durğunluq var. “Qərbin, sadəcə, bu iki ölkəyə təklif edəcəyi heç nə yoxdur. Və əgər Rusiya real iqtisadi sektoru daha aktiv şəkildə inkişaf etdirsə, bu ölkələr anlayacaq ki, Rusiya ilə sıx dostluq əlaqələri onlara daha perspektivli gələcək vəd edir” - deyir analitik.

Ekspert Qərbin xarici siyasətindəki durğunluğu iqtisadiyyatdakı durğunluqla izah edir. “Qərbi Avropada iqtisadiyyatın inkişaf etməkdə olan yeganə sektoru - maliyyə sahəsidir ki, bu da çox dar dairənin adamlarına gəlir gətirir. Qərbdə adi insanların maaşı on illərdir artırılmır, istehlak səviyyəsi qalxmır, bazar həddən ziyadə məhduddur. Ona görə də Azərbaycan və Ermənistan kimi ölkələr öz mallarını Qərb bazarlarına ixrac edə, Qərblə iqtisadi təmasları inkişaf etdirə bilmir. Bu zaman da Rusiya Cənubi Qafqaz ölkələri üçün cəzbedici qütb olmaq şansları əldə edir - üstəlik, onların tarixi əlaqələri var” - deyib ekspert.

*****



Britaniyalı tanınmış tarixçi Dominik Liven bu fikirlərlə razı olsa da, onun məsələyə özəl yanaşması var. Onun fikrincə, Böyük Britaniyanın Qafqaza hazırkı münasibəti bu iki respublika üçün önəm kəsb etməməlidir: “Məsələ ondadır ki, Britaniya əvvəlki əsrlərdəki kimi qüdrətli dövlət deyil, onun regiona hər hansı təsir imkanı qalmayıb. Əlbəttə ki, Britaniyanın Qafqaz tarixindəki yeri çox mühümdür, ancaq bu rol artıq Balkanlardakı kimi çoxdan mövcud deyil. Qafqazda olanda məndən Böyük Britaniyanın baxışları haqda soruşdular. Və mən eyni şeyi dedim: 2-ci Dünya müharibəsi zamanlarını daima yada salmaq və İngiltərənin dünyada eyni rolu oynadığını düşünmək olmaz”.

Öz növbəsində Almaniya-Rusiya Forumunun elmi direktoru Aleksandr Rar Azərbaycan və Ermənistana diqqətin azalmasının təkcə Qərbdə siyasi resursların çatışmazlığı ilə əlaqəli olmadığını düşünür, həmçinin iki ölkənin apardığı xarici siyasətə bağlayır: “Nə Ermənistan, nə də Azərbaycan ”Şərq tərəfdaşlığı" proqramına Avropa Birliyinin istədiyi kimi lazımi diqqət və maraq göstərmədi. Ona görə də avropalıların maraqlar fokusu yerini AB ilə inteqrasiyanı dərinləşdirməkdə maraqlı olan və Assosiasiya sazişlərini imzalayan Ukrayna və Moldovaya doğru dəyişdi".

Politoloqa görə, buna görə Qarabağ münaqişəsinin nizamlanması Avropa maraqlarının ucqarlarına atılıb: “Əlbəttə ki, konfliktin qızışmasının Avropaya dəxli olacaq. Ancaq bu gün Avropanın özündə kəskin və böyük problemlər var: Yunanıstan, qaçqınlar, maliyyə və Ukrayna böhranları hələ ki, aradan qaldırılmayıb. Yekunda belə mənzərə alınır ki, Avropa hər yerdə yanğınsöndürən ola bilməz. Odur ki, ona yalnız Azərbaycanla Ermənistanın öz aralarında razılığa gəlməsinə ümid eləmək qalır”.

Bununla belə ekspert hesab edir ki, Cənubi Qafqazla əlaqələrin kəsilməsindən söhbət gedə bilməz. “Avropa Birliyinin nümayəndələri onsuz da daim Bakıya səfər edirlər. Axı Azərbaycan Avropaya Avropa energetik siyasətini reallaşdırmaq üçün lazımdır. Yəni Avropa Qərb siyasi dəyərlərini qəbul eləmək istəməyən ölkələrdə baş verənlərə həmişə tənqidi yanaşacaq. Ola bilsin bu ölkələr öz evlərində hətta heç vaxt Avropanın arzuladığı Qərb demokratik sistemini qurmasın, bununla belə, vəziyyəti dramatikləşdirməyə, əlaqələrin kəsilməsindən danışmağa da dəymir” - qeyd edir politoloq.

*****

“Dağlıq Qarabağ konfliktinin həlli üçün getdikcə daha az vaxt qalır”. Bunu isə türkiyəli ekspert Hakan Altınay deyir. Onun sözlərinə görə, məsələdə hansısa qapalı dairə yaranıb və ondan çıxmaq, irəli addım atmaq zamanıdır: “Təəssüf ki, münaqişə iştirakçıları hesab edir ki, zaman onların tərəfindədir. Azərbaycan daha varlı və nüfuzlu ölkəyə çevrilir, odur ki, üstünlüyün onun tərəfində olduğuna əmindir. Ermənistan düşünür ki, işğal altındakı ərazilərə görə zaman ona işləyir. Ancaq tərəflərdən biri hesab edəndə ki, onun vaxtı kifayət qədərdir, o zaman problem çözülə bilməz”.

“Əfsuslar olsun ki, bu qəbildən olan ”dondurulmuş" münaqişələr - gec partlayan bombalardır. Heç kim bilmir ki, Qarabağ bombası nə vaxt partlayacaq. Bu, ən yaxın zamanlarda da baş verə bilər. Əgər biz bacarıqlıyıqsa, o zaman bu problemləri həll eləməliyik", - deyə ekspert münaqişə tərəflərinə və vasitəçi dövlətlərə səslənib.

# ABŞ nəşri: “Erməni ordusunda itkilərin sayı beş dəfə artıb”



**“Azərbaycan və Ermənistanın təmas xəttində qurbanların sayı artır. Bu tendensiya Ermənistanın bəzi sakinlərini Rusiya ilə onların ölkəsinin strateji münasibətlərinə yenidən baxmağa məcbur edir”. Bu sözlər ABŞ-ın “EurasiaNet” nəşrinin “Moskva təhlükəsizlik sahəsində İrəvana kömək etməyə nə qədər hazırdır?” başlıqlı yazısında yer alıb (publika.az).**

Nəşr qeyd edir ki, 2013-cü ildən Ermənistan ordusunda döyüş itkilərinin sayı beş dəfə artıb. Cari ilin ilk doqquz ayı ərzində 31 erməni əsgərinin öldüyü bildirilir. “Təmas xəttində 2014-cü ildə 28 hərbi qulluqçu həyatını itirib”, - Amerika nəşri erməni tərəfinin hərbi itkilərini qiymətləndirir.

Yazıda bildirilir ki, Ermənistan sakinləri ölkənin şimalında - Gümrü şəhərində hərbi bazası olan Rusiyaya ənənəvi müttəfiq kimi baxsalar da, Dağlıq Qarabağ ətrafında gərginliyin artması fonunda bəzilərində suallar yaranmağa başlayıb: Moskva Ermənistanın maraqlarını müdafiə etməyə hazırdırmı?

“Rusiya yetkililəri isə ”Qarabağ müharibəsində Kreml Ermənistan, yoxsa Azərbaycanın tərəfində olacaq" sualına cavab verməkdən yayınırlar. Ermənistanın üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da dəfələrlə İrəvana siqnallar göndərib ki, qurum Ermənistanın beynəlxalq birlik tərəfindən tanınan sərhədlərini müdafiə etməyə hazırdır. Ermənistan tərəfindən işğal olunan Dağlıq Qarabağ və ətraf rayonlar isə beynəlxalq birlik tərəfindən Azərbaycanın ərazisi kimi tanınır. Hərbi blok olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da Ermənistanı müdafiə etmək üçün heç bir qanuni əsasa malik deyil" - nəşr qeyd edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015

# "Valideynin siyasi fəaliyyətinə görə övladdan imtina hüququ yoxdur"

## Müzəffər Baxış: "Bu, sırf siyasi bəyanatdır..."

**Azərbaycanda valideynlərin siyasi fəaliyyətinə görə öz övladlarından imtina etməsi son vaxtlar az qala ənənə halını alıb. Bu, Azərbaycanın milli mənəvi dəyərlərinə yaraşmayan hal olsa da, insanlar buna məcbur edilir. Bu məcburiyyət də bir övlada görə digərlərinin həbsi və ya yaxın qohumlarının incidilməsi, hədələnməsi şəklində olur.**

Belə hallar sanki bizi 1937-ci illərə, Stalin repressiyası illərinə aparır. Ananı, atanı övladına qarşı qoymaq insanlığa sığmayan bir hərəkətdir ki, bunu 1937-ci illərin tarixindən xəbərdar olanlar daha yaxşı bilir.

Son bir neçə ayda ailəsindən, övladından imtina edənlərin sayı artıb. Buna misal olaraq Hazırda Hollandiyada mühacirətdə olan müxalifətçi Rəsul Mürsəlovun ailəsinin oğlunun siyasi fəaliyyətinə görə ondan imtina etməsini, Meydan TV-nin direktoru Emin Millinin 23 qohumunun prezidentə məktub yazaraq ondan imtina etməsini, Qənimət Zahidin qohumlarının ondan imtinasını və başqalarını misal çəkmək olar. Son olaraq da Meydan TV ilə əməkdaşlığına görə iki qardaşı şərlənərək həbs edilən Günel Mövludun valideynləri ondan imtina etdi.

Maraqlıdır, bəs qanun bu cür hallara nə deyir bu cür imtinalar hansı hüquqi nəticə doğura bilər? Ümumiyyətlə, qanunda valideynin siyasi fəaliyyətinə görə öz övladından imtina etmək hüququ varmı?



Müzəffər Baxış

Hüquqşünas Müzəffər Baxış bildirdi ki, qanunda valideynin övladından, yaxud övladın valideynindən imtina etmək qaydası nəzərdə tutulmayıb: "Bizim qanuna və beynəlxalq hüquq normalarına, uşaq hüquqları haqqındakı Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə görə və bütün qanun, konstitusiyaya görə 18 yaşına çatmamış şəxs uşaq sayılır. 18 yaşından yuxarı hər bir şəxs isə müstəqil şəxsdir. Yeni qanunvericilikdə 18 yaşdan sonra kiminsə öz valideynindən, valideynin öz övladından imtina etmək qaydası nəzərdə tutulmayıb. 18 yaşına çatmamış uşaqlara münasibətdə valideynlik hüquqlarından məhrum etmə və yaxud valideynlik hüququnun məhdudlaşdırılması institutu var. Amma qanunda valideynlərin öz uşaqlarından imtina etməsi kimi bir hüquq nəzərdə tutulmayıb, tutula da bilməz. Yeni bu konstitusiyaya da, qanunlara da ziddiyyət təşkil edir. Natəmiz valideynlər bəzən öz uşaqlarını atırlar. Bu da baş verəndə belə uşaqlara valideynləri məlum olmayan uşaqlar kimi dövlət himayədarlıq edir və onları uşaq müəssisələrinə və digər yerlərə yerləşdirir".

Günel Mövludun valideynlərinin ondan imtina məsələsinə gəlincə hüquqşünas bunun sırf siyasi bəyanat olduğunu və heç bir hüququ əsas daşımadığını dedi: "Günel Mövlud və onun kimi digərlərinin valideynləri Azərbaycanın reallığından çıxış edərək bəyanat verirlər ki, biz öz övladımızdan imtina edirik. Bunun heç bir hüquqi əsası yoxdur. Sadəcə olaraq, bu siyasi bir bəyanatdır və bu siyasi bəyanat Azərbaycan hakimiyyətini onurğa sütunundan vurub, hakimiyyəti məhv edir. Bəlkə də hakimiyyətin yerlərdə təmsil olunan ağılsız vəzifəli şəxsləri düşünür ki, bu yolla onlar ona xidmət edirlər. Günel Mövlud Meydan TV ilə əməkdaşlıq etdiyinə görə onun iki qardaşı tam məsuliyyətlə deyə bilərəm ki, heç bir günahı olmadan guya narkotik vasitələrdən istifadə etdikləri üçün cinayət məsuliyyətinə cəlb ediliblər. Valideynlərdə məcburiyyət qarşısında qalaraq, belə bəyanat veriblər. Hakimiyyətdə təmsil olunan şəxslərin son hərəkətləri bir daha təsdiq edir ki, onlar bu xalqa qarşı düşmənçilik siyasəti həyata keçirir".

❑ Günel MANAFLI



# 1 noyabrdan sonra manatı nə gözləyir?

## İqtisadçı ekspert: "Milli pul gələn ay bir az da məzənnədən düşə, Azərbaycan Qazaxıstan variantına keçə bilər..."

**Azərbaycanda manatın növbəti devalvasiyası ilə bağlı fikirlər dolaşır. Belə ki, 1 noyabr parlament seçkilərindən sonra milli pul vahidinin ABŞ dolları qarşısında daha da dəyərdən düşəcəyi barədə iddialar artıb.**

Məsələ ilə bağlı musavat.com-a danışan iqtisadi ekspert Rəşad Həsənov növbəti aylarda manatın məzənnəsində dəyişikliyin olacağının gözlənilən saydı: "Ancaq düşünmürəm ki, ölkədə keçiriləcək parlament seçkiləri manatın məzənnəsi ilə bağlı hansısa təyin olunmuş vaxtdır. Məsələ seçkilərdə deyil, sadəcə olaraq manatın məzənnəsinin dəyişməsinə ciddi ehtiyac var. Çünki Mərkəzi Bankın ehtiyatları kəskin şəkildə azalır. Eyni zamanda neftin qiyməti dünya bazarında gözlənildiyindən aşağı həddə formalaşıb. Həmçinin, xaricdən Azərbaycana daxilolmalar azalıb. Xüsusilə Rusiyadan ölkəmizə göndərilən vəsaitlər ötən illə müqayisədə iki dəfəyə yaxın kiçilib. Məsələ ondadır ki, Mərkəzi Bankın devalvasiya haqqında qərar verməsinin qarşısını kəsən amillər real sektorun və eyni zamanda bank sektorunun vəziyyətidir. Yəni hazırkı situasiyada biznesdə vəziyyət o qədər də yaxşı deyil. Bu səbəbdən devalvasiya prosesi ləngidilir. Düşünürəm ki, təxminən 2 ay müddətində bu istiqamətdə hansısa qərar veriləcək. Mümkündür ki, Azərbaycan Qazaxıstan variantını tutsun - yəni üzən məzənnə siyasətinə keçirilsin. Digər tərəfdən də ola bilər ki, prosesləri nəzarətdə saxlamaq üçün hansısa formada ciddi rəqəmlərlə ifadə olunan devalvasiyaya gedilsin".

Ekspertin sözlərinə görə, hazırkı durum neftin qiymətindən asılı olaraq müsbətə doğru da dəyişə bilər: "Neftin qiyməti bundan sonrakı dövrdə indiki vəziyyətdə qalarsa, bir neçə ay ərzində devalvasiya qərarı veriləcək. Nəzərə alsaq ki, bir çox hallarda iri şirkətlər ilin sonuna yaxın xarici borc öhdəliklərini yerinə yetirmək məqsədi ilə valyuta bazarlarından dollar alırlar. Bu da Mərkəzi Bankın intervensiya xərclərini artıracaq. Nəticədə növbəti devalvasiya qaçılmaz olacaq".

Qeyd edək ki, bu ilin 21 ferral tarixində Mərkəzi Bankın qərarı ilə manatın məzənnəsi dollara nisbətdə 34 faiz ucuzlaşdı.

❑ Əli RAİS, musavat.com

# Gürcüstanda adam oğurlayan azərbaycanlılar haqda yeni məlumat

## Bandanın Azərbaycanda ələ keçməyən üzvlərinin olması ehtimalı böyükdür

**Gürcüstanda Rusiyanın iki vətəndaşını girov götürən cinayətkar qrupun üzvləri tutulub. Bu haqda ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb. Tutulanlar Rusiya vətəndaşlarını qanunsuz olaraq azadlıqdan məhrum etmək, tamah məqsədi ilə əvvəlcədən planlaşdırılmış cinayət törətməkdə ittiham olunurlar.**



Gürcüstan DİN-in Kvemo Kartli (Borçalı) regional idarəsinin apardığı istintaq-axtarış tədbirləri nəticəsində cinayətkar qrup ölkənin Rustavi şəhərində saxlanılıb: "Qrupa Azərbaycanın iki vətəndaşı - 1976-cı ildə anadan olan Mübariz B. və 1984-cü il təvəllüdlü Fariz X., Gürcüstanın 3 vətəndaşı - 1988-ci ildə anadan olan Vladimir C., 1983-cü ildə anadan olan Vukar K. və 1988-ci il təvəllüdlü Roman Z. daxildir".

Qrup üzvləri Gürcüstana qohum toyuna gələn Rusiya vətəndaşları, iş adamları Üzeyir S. və Mahir A.-nı oğurlayaraq, bir neçə gün qapalı yerdə saxlayıb, onların azadlığa buraxılmaları qarşılığında pul tələb ediblər.

Yada salaq ki, bu il sentyabrın 28-də "Yeni Müsavat" qəzetində "Azərbaycanda adam oğurlayan banda peyda olub" (http://musavat.com/news/kriminal/azerbaycanda-adam-ogurlayan-banda-peyda-olub_294762.html) sərlövhəli yazı dərc olunub.

Həmin yazıda Gürcüstanda adam oğurlayan bandanın Azərbaycana keçməsi, burada bir generalın nəvəsini oğurladığından söhbət açılırdı. Redakisiyamıza daxil olan məlumatda deyilirdi ki,

Azərbaycan hüquq-mühafizə orqanlarının adam oğurluğu ilə məşğul olan Heydər adlı şəxsi axtarır. Heydərin adam oğurlayan bandanın əsas başçılarından biri olduğu qeyd edilirdi.

Həmin yazıdan sitat: "Heydər və bandanın üzvlərinin bir çoxu Gürcüstan vətəndaşlarıdır. Onlar Bakıda kirayə evlərdə yaşayıblar.Banda Gürcüstanda bir zəngin biznesmenin xanımını oğurlayıb. Belə məlumat var ki, qadının geri qaytarılması üçün yaxınlarından 4 milyon dollar tələb olunur. Məlumatda bildirilir ki, banda üzvlərinin bir çoxu Gürcüstandakı cinayətdən sonra Azərbaycan ərazisinə keçiblər. Oğurladıqları qadının harada saxlanıldığı isə bilinmir. Onu Gürcüstan ərazisindəki gizli ünvanda saxladıqları ehtimal olunur".

Yazıda bandanın Azərbaycan ərazisində də fəaliyyətdə olduğunu söyləməyə əsas verən xəbər də vardı: "Belə ki Bakıda baş tutan nişan mərasimlərindən birindən bir uşaq oğurlanıb. Həmin uşağın istefada olan bir generalın nəvəsi olduğu bildirilir. Generalın yaxınlarının hüquq-mühafizə orqanlarına şikayət edib-etmədikləri haqda məlumat yoxdur".

Həmçinin qeyd olunurdu ki, Azərbaycan hüquq-mühafizə orqanları bandanın izinə düşə bilib: "Heydərin Sumqayıtda yaşayan qohumları və əmiləri tutulub. Corat və Pirşağı bağlarında da keçirilən xüsusi əməliyyatlar zamanı bandanın bir neçə üzvü yaxalanıb. Heydər də daxil olmaqla bandanın rəhbərliyində olan bir neçə şəxs qaça bilib. Onların qeyri-leqal yollarla Gürcüstan ərazisinə keçdiyi deyilir. Belə ki Sumqayıtda və bağ massivlərində baş tutan əməliyyatlardan sonra Gürcüstanla həmsərhəd olan Balakən rayonunun ərazisindən banda üzvlərindən biri Gürcüstanda oğurladıqları qadının yaxınları ilə telefonla əlaqə saxlayıb. Telefon danışığının baş tutduğu ərazini müəyyən edən hüquq-mühafizə orqanları dərhal ora yollanıblar. Belə aydın olub ki, banda üzvü Gürcüstana Balakən meşəsindən zəng edib. Tutulan banda üzvlərindən alınan ifadələrdən belə məlum olub ki, onlar oğurladıqları şəxsləri Heydərə təhvil veriblər. Bundan sonrası haqda isə Heydər onlara hər hansı bir məlumat verməyib. Oğurlanmış şəxslərin saxlanıldığı ünvanlar haqda banda üzvlərində məlumat olmayıb. Ən maraqlı məqamlardan biri isə dəstənin rəhbərliyində "Hacı" adlı şəxsin olmasıdır. Gələn məlumatlara əsasən söyləmək olar ki, oğurlanan şəxslərin yaxınları ilə danışıqlar "Hacı" vasitəsi ilə aparılıb, Heydər isə oğurlanmış şəxslərin saxlanılması ilə məşğul olub".

Gürcüstan DİN-in yaydığı məlumatda adam oğurlayan bandanın digər bir cinayəti haqda məlumat yayması haqda ehtimal var. Gürcüstanda ifşa olunan bandanın Azərbaycanla əlaqələrini təsdiqləyən məlumatlar onu deməyə əsas verir ki, söhbət eyni bandadan gedir. Bu baxımdan bandanın nişan və toy mərasimlərindən gələcək qurbanlarını girov götürməsi də üst-üstə düşən məqamlardandır. Bandanın Azərbaycanda ələ keçməyən üzvlərinin olması ehtimalı böyükdür. Çünki Heydər adlı şəxsin ifşa olunması haqda məlumat yoxdur. Gürcüstan DİN-in yaydığı məlumatda onun adına rast gəlinmir.

Azərbaycan DİN də belə bir şəxsi ifşa etməsi haqda rəsmi məlumat yaymayıb.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015

# Bakı şəhər Mədəniyyət və Turizm İdarəsində büdcə yeyintisi

## Nazirlikdə dövlət vəsaitinin talandığını sübut edən növbəti faktlar...

**Mədəniyyət və Turizm Nazirliyinin rayon şöbələrində dövlət büdcəsindən ayrılan vəsaitin mənimsənilməsi haqda ötən saylarımızın birində məlumat vermişdik. Hətta bəzi rayon şöbələrinin müdirlərinin aparılan araşdırmalardan sonra vəzifədən uzaqlaşdırıldığını, dövlət büdcəsinin necə talandığını əks etdirən sənədləri də dərc etmişdik.**




AZƏRBAYCAN RESPUBLİKASI
HESABLAMA PALATASININ KOLLEGİYASI
QƏRAR

Xatırladaq ki, dövlət büdcəsinin məmurlar tərəfindən necə talanmasını Hesablama Palatasının audit yoxlamaları üzə çıxarıb. Bu haqda mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə məlumat verildikdən sonra nazirin göstərişi ilə Cəlilabad rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri İsa Allahverdiyev, Yevlax şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İlqar Əhmədov işdən çıxarılıb. Bundan başqa Ağdam və bir neçə rayon mədəniyyət və turizm şöbələrində də aparılan yoxlamalarda da bu cür nöqsanlar üzə çıxıb.

Ən böyük nöqsan elə nazirliyin əsas idarələrindən biri olan Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində də qeydə alınıb.

Musavat.com idarədə dövlət büdcəsindən ayrılan vəsaitin necə talandığını, yalan hesabatlarla "silindiyini" sübut edən sənəd əldə edib. Hesablama Palatasının 30 iyul 2015-ci il tarixli Q-115 saylı qərarında göstərilir ki, idarədə təxminən 1 milyon manata yaxın vəsaitin mənimsənildiyi üzə çıxıb. Hesablama Palatası müəyyən edib ki, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin 1 nömrəli maliyyə və iqtisad regional bölməsi tərəfindən işçilərin İstanbulda istirahəti üzrə xərc edilmiş 18.018 manat, Xızı rayonunun Altıağac qəsəbəsində treninqin təşkili üzrə xərc edilmiş 36.800 manat, Novruz bayramı şənliklərinin keçirilməsi üzrə 5850 manat, silinmiş mal-material qiymətlərinin dəyəri üzrə 47.932.4 manat, mərkəzləşdirilmiş xərclər hesabına verilən mal-materialların çatışmazlığı üzrə 152.783 manat, artıq ödənilmiş əmək haqqı üzrə 665.1 manat, artıq ödənilmiş ezamiyyə xərci üzrə 27.204.8 manat vəsaitin nəğd qaydada, 173.553.8 manat dəyərində mal-materialların natura formasında bərpası, 299.634.5 manat dəyərində mal-materialların isə digər uyğun mallarla əvəz edilməsi, muzeylərə alınmış 46.676.8 manat eksponatların əsas vəsait kimi, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən əvəzsiz qaydada verilmiş mal-material qiymətliləri üzrə 560.280,0 manat ƏDV-nin uçota götürülməsi nəzərə alınsın.

Bundan əlavə Hesablama Palatası idarənin tabeliyində olan musiqi məktəbləri, mədəniyyət evləri və kitabxanalar üzrə artıq saxlanılmış 108, ştatdankənar işçi adı ilə isə saxlanılmış 32 ştat vahidinin ixtisar edilməsi tapşırılıb.

Hesablama Palatasının Kollegiyasının müvafiq qərarının 5.1-ci bəndinə əsasən Mədəniyyət və Turizm Nazirliyi öz növbəsində Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin tabeçiliyində olan mədəniyyət müəssisələrində dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclər hesabına verilməsi rəsmiləşdirilmiş mal-materialların çatışmazlığı üzrə 66.936 manat, o cümlədən Şaroyev adına 35 saylı Musiqi məktəbi üzrə 11.490 manat, F.Əmirov adına 6 saylı Uşaq İncəsənət məktəbi üzrə 8510 manat, Bibi Heybət qəsəbə Mədəniyyət evi üzrə 12.000 manat və 5 saylı Uşaq İncəsənət məktəbi üzrə 6586 manat vəsaitin büdcəyə bərpasını təcili təmin etməlidir.

Bundan başqa qeyd edilib ki, nöqsanlara yol vermiş vəzifəli şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilməsi təmin edilsin. Lakin onlar haqda hələlik heç bir tədbir görülməyib.

❑ İlkin MURADOV

# Fermer "Parabank" əngəlini aşmaq üçün prezidentə müraciət etdi

## İqbal Mikayılov: "Mən dövlətimizin vəsaitindən güzəştli kredit istəyirəm"

**Şirvanlı fermer İqbal Mikayılov prezidentə müraciət edib. Fermer "Parabank" sədri Vəli Quliyevin fəaliyyətini iflic etdiyini yazır:**




"Möhtərəm cənab Prezident. 2004-cü ildə təssis etdiyim və ötən ildən qurub yaratdığım, fəaliyyət göstərən "İLHAM" MMC kəndli fermer təsərrüfatı "Parabank"ın sədri Vəli Quliyevin ucbatından bağlanır, məhv olur. Bu ilin aprel ayının ortalarında bankın sədri Vəli Quliyev şəxsən mənə telefonla bildirdi ki, əlavə girovlar təqdim et, yenidən sizə Sahibkarlığa Kömək Milli Fondundan güzəştli kredit verim. O zaman mənim adımda olan kreditdə heç bir gecikmə yox idi. Lakin 5 ay məni ələ salan, yollarda girinc qoyandan sonra Kamil adlı işçisini qarşıma çıxarıb dedi ki, sizə kredit vermirik, Vəli Quliyevin sizdən xoşu gəlmir. "Parabank" Vəli Quliyevin atası Eldar Quliyevin şəxsi bankıdır. İstədiyi müştəriyə kredit verir, istəmədiyinə vermir.

Cənab prezident! Siz Nazirlər Kabinetinin son iclasında qeyd etdiniz ki, sahibkarlara köməklik edilsin, fəaliyyətləri genişləndirilsin, iş yerləri açılsın. Eyni zamanda fəaliyyətini dayandıran sahibkarlardan da söz açaraq səbəbinin araşdırılmasını tələb etdiniz. Vəli Quliyev kimə güvənir? Siz deyirsiz sahibkarlara kömək edilsin, bu isə deyir bank mənimdi, özüm bilərəm, kimə kredit verərəm. Mən artıq kəndli fermer təsərrüfatımı bağlamaq qərarına gəlmişəm. Məni bu addımı atmağa vadar edən "Parabank"ın sədri Vəli Quliyevdir. Çünki mən güzəştli kredit alıb tikib yaratdığım fermaları mal-qara ilə doldura bilmədim. Tam məsuliyyətimlə sizi əmin edirəm ölkəmizdə sahibkarlığa köməklik edən yoxdur. Sahibkarlığın inkişafına Vəli Quliyev kimi "krışa"larına arxalananlar ciddi-cəhdlə mane olurlar. Mən Sizin siyasətinizə tam uyğun olaraq "İLHAM" MMC kəndli fermer təsərrüfatını quraraq kifayət qədər heyvandarlıq üçün baza yaratmışam. Amma "Parabank"ın sədri Vəli Quliyev Sizin tapşırıq və tövsiyələrinizə məhəl qoymayaraq mənə kredit vermir.

Elman Rüstəmov bu günə kimi "Parabank"da baş verənlərə heç bir reaksiya vermir. Sanki Vəli Quliyevin barəsində mənasız şikayətlər edirik. Lakin nə Sahibkarlığa Kömək Milli Fondundan, nə Kənd Təsərrüfatı Nazirliyindən, nə Mərkəzi Bankdan şikayətlərimə cavab verilmir. Vəli Quliyevdən soruşan yoxdur ki, aprel ayında sizə kredit üçün sifariş verəndə gecikməsi olmadığı halda niyə 5 ay vətəndaşı süründürmüsən? Hamı gözləyir ki, prezident göstəriş versin, sonra bunlar əl-ayağa düşsünlər. Ona görə mən baş prokuror Zakir Qaralova inanıb rica edirəm, məni qəbul edib dinləsin. Mən çıxılmaz vəziyyətdəyəm.

Cənab Prezident! Sizin göstərişiniz lazımdır ki, Baş Prokurorluq "Parabank"ın sədri Vəli Quliyev barəsində araşdırma aparıb ölçü götürsün. Əgər mənim şikayətim əsassız olsa məsuliyyət daşımağa hazıram. Mən krediti alıb Vəli Quliyev kimi Avropa ölkələrində kef çəkmək üçün istifadə etməyəcəyəm. Mən fəaliyyətimi genişləndirib Sizin aqrar siyasətinizə töhvə vermək istəyirəm. Sizdən "İLHAM" MMC kəndli fermer təsərrüfatının sahibi kimi xahiş edirəm. İmkan verməyin həvəslə qurub yaratdığım təsərrüfatım məhv olub getsin. Mən dövlətimizin vəsaitindən güzəştli kredit istəyirəm".

❑ E.HÜSEYNOV

# Transformator sizsiz...



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Biz illərdir bu mövzuda zarafat edirik. Sosial şəbəkənin trendlərindəndir "qara kurtkalı qaqaşların kədəri" söhbəti. Son dövrlər cəmiyyətdə sayı gündən-günə artan, yolda-izdə kədərləri, aqressiyaları, "panyatka söhbəti" ilə bizi təngə gətirən o təbəqənin etdiklərinə nə qədər istehza ilə yanaşsaq da, altını da çəkirik. Bəli, adına "ana-bayı söhbəti" dediyimiz məsələ bayağılaşıb və insanların taleyi ilə oynamağa başlayıb.**

Təsəvvür edin, son bir neçə ayda sırf namus söhbətinə görə neçə-neçə ailənin ocağı sönüb. Biri deyir, arvadım niyə əmisi oğlu ilə görüşdü, o biri deyir niyə bacım evə qız(!) gətirdi. Bir başqa "nervinni" qaqaş iddia edir ki, bacısını hansısa oğlanla əl-ələ tutduğu yerdə görüb deyə, sonuncunun həyatı sönməlidi. Və düşündüyü də edib, söndürüb. Tin söhbətləri fəlsəfi don almağa başladıqca, insanlarımıza milli efirdən səviyyəsiz, elgizvari ailə-məişət verilişləri sırıdıqca daha nə olasıydı ki? Deyir, ağıllınız kimdi? Qabaqda gedən zəncirli...

Hər şey bununla qalmır. Gənclər el-obanın, qohum-qardaşın tənəsindən qorxduqları üçün transformatorun içində görüşürlər. Normalda bu cür xəbərlər qəzetlərin 16-cı səhifəsində yer alır - məzəli hadisə kimi. Amma sonu bu cür faciəli bitməyəndə. Üstəlik, dünyanın o gözəl ölkələrində gənclər ağlagəlməz yerlərə qorxudan yox, fantaziya, ekstrim axtarışında girirlər.

Gənclərə görüşmək üçün yermi qəhətdir... deyə suallar isə neçə gündür qulağımızı dəng edib. Sanki bunu deyənlər Avropa dəyərləri ilə həyatını qururlar, gənclərə qarşı anlayışları da kəllə çarxa çıxıb. Elə deyil, mənim əzizlərim. Qonşu qızının öz yaşıdı bir oğlanla universitetdən, lap elə məktəbdən gəldiyini görən kimi onun anasına xəbər edən siz, "aazz, qızının ayağını yığ, adına söz çıxacaq" deyib, elə ilk sözü yayan siz, bir qız Stalin dövründə hansısa oğlanla sevgili olduğu üçün onun adını pozğuna çıxaran da siz. "Yaxşı oğlanın bacısının sevgilisi olmaz, ay brat" söhbətlərini demirəm hələ. Heç uzağa getməyək, küçədə, məhlədə mehriban-mehriban söhbət edən gənc cütlük görəndə neçə nəfər onlara baxmadan, gözünü bərəldib müşahidə etmədən keçir? Hamı ona adi bir həyati mənzərə kimi yanaşa bilirmi? O zaman bu süni qayğıkeşlik, "niyə başqa yerdə görüşmürdülər" söhbəti niyə? Yermi var bu ölkədə?

El tənəsi bir qırağa, siz parkda oturan cütlüyə hansı növ təzyiqlər edilir, bilirsizmi? Az qala sahə müvəkkili səviyyəsində incidirlər gəncləri... Gəlib, ədəb-ərkanla özlərini təqdim edirlər və Allah göstərməsin, hava azca qaralıbsa, inkir-minkir sualları başlanır. Niyə burda oturmusuz? Sənədlərinizi təqdim edin. Evdə bilirlərmi?.... Məlum, suallar artdıqca artır. Qız ürkək, oğlan ondan da ürkəkdirsə, məsələni "tatlıya bağlamaq" üçün də dədə-baba qaydası kara gəlir. Əks halda qorxudurlar: polislə, valideynlərə xəbər verməklə, saxlanmaqla... Təsəvvür edirsizmi mənzərəni?

Məlum, transformator qəzasındakı gənclərdən birinin vəziyyəti ağırdır, qolunu itirib. Oğlan şikəst halı ilə həyata necə davam edəcək, bilinməz. Amma fiziki baxımdan sağlam olan qızı da şikəst bir həyat gözləyir. Onun bu tənələr, bu haqq-hesabla çox sağlam həyat keçirəcəyinə əminsizmi?

Cəmiyyəti "purjin" kimi hər tərəfdən sıxanda, savadsızlığı, cahilliyi toxum kimi ətrafa səpəndə bu nəticə də qaçılmaz olur. Bu milləti heç nə yox, qara kurtkalı qaqaşların kədəri və nifrəti yıxacaq...

Odur ki, heç kim inciməsin. Gəncləri yaralayan, həyatını qaraldan o transformator özünüzsüz. Gənclər sizin hüdudsuz nifrət cərəyanınızda ölürlər. Başqa yerdə günahkar axtarmayın...

YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015

# Elza Seyidcahanı məsciddə döymək istədilər

## “Bəzi adamlar deputat statusunu özəlləşdirib, bəs onda 5 ildən bir seçki keçirmək nə üçündür?”

**“Barəmdə qadına yaraşmayan təhqirlər edir, təzyiqlər göstərir, seçicilərimə və mənə hədə-qorxu gəlir, açıq-aşkar üstümüzə hücum çəkirlər”. Bu sözləri 54 saylı Şabran-Siyəzən dairəsindən deputatlığa namizəd, əməkdar artist Elza Seyidcahan musavat.com-a bildirib.**




Namizədin dediyinə görə, ona qarşı fiziki və psixoloji təsir göstərənlər adıçəkilən dairənin hazırki deputatı, namizəd Tahir Süleymanov və digər namizəd Etibar Heydərovun “adamları”dır: “Seçki təbliğat-təşviqat kampaniyasına uyğun seçicilərimlə mütəmadi görüşlər keçirməyə çalışıram. Görüşüb söhbət etmək istəyirəm ki, naməlum adamlar gəlib, insanları qovur, görüşümüzü dağıdır, seçicilərin üstünə qışqırıb deyirlər ki, ”bilmirsiz sizin öz deputatınız var?!". Bir sözlə, mənə görüşlər keçirməyə imkan vermir, qarabaqara maşınla izləyir, hədələyirlər.

Məlum olur ki, namizədlər Tahir Süleymanov və Etibar Heydərov seçiciləri ilə görüşdə şərəf və ləyaqətim barəmdə olmazın təhqir və böhtanları deyir, guya mənim “Azərbaycan qadını adına ləkə gətirən bir qadın” olduğumu bildirirlər. Onlar seçki təbliğatını qanuna uyğun olmayan şəkildə məktəblərdə, dövlət müəssisələrində aparır, görüşlər keçirirlər. Mənim əlimdə onların uşaq internat məktəbində barəmdə təhqiramiz ifadələr işlətdiyini əks etdirən audio yazı var. Lazım gələrsə, həmin audio yazını mətbuata təqdim edə bilərəm".

Əməkdar artist Aşura günündə Siyəzən məscidində fiziki təzyiqə məruz qaldığını deyib: “Adətim üzrə Aşura günü məscidə getdim. Qadınlarla birgə mərsiyə deyirdik ki, bir oğlan qadınların arasına girib, üstümə gəlib dedi ki, siz qanunsuz olaraq burda seçki təbliğatı keçirirsiz. Bildirim ki, mən seçki üçün deyil, Aşura mərasimi üçün gəlmişəm. Hətta qadınlar da oğlanın hərəkətinə əsəbiləşib, ona etiraz etdilər. Birdən oğlan mənə tərəf yumruq atmaq istədi, bu zaman qadınlar araya girib onu qovdular. Xoşagəlməz olayla bağlı mühafizə orqanlarına şikayət etdim”.

E.Seyidcahan qarşılaşdığı daha bir ilginc olaydan da bəhs edib: “Bu günlərdə yolum Şabran rayonunun Ağalıq kəndinə düşdü. Orada bir bazar var, hansı ki, həmin bazarda daha çox Məhsəti türkləri alış-veriş edir. Bazar əhli məni görən kimi yaxınlaşıb görüşdülər, şəkil çəkdirməyə başladılar. Bu zaman məni izləyən naməlum şəxslər hay-küy qoparıb adamları dağıtmağa başladılar. Dedilər ki, ”sizin deputatınız məlumdur, yoxsa sizi bu bazara həsrət qoyarıq". Onların sözlərindən belə çıxırdı ki, rayon icra hakimiyyətinin özü bu barədə onlara tapşırıq verib deyib ki, mənim kəndlərə getməyim yasaqlansın. Qanunla millət vəkilini icra hamiyyəti deyil, xalq seçir. Belə çıxır ki, bəzi adamlar deputat statusunu özlləşdiriblər? Bəs onda beş ildən bir seçki keçirmək nə üçündür?"

Namizəd ona qarşı edilən təzyiq və təhqirlərə görə mətbuat orqanlarına səslənib: “Mən əməkdar artist adını danışıyıram, bəstəkaram, ən əsası isə anayam. Haqqımda çox iyrənc kampaniya aparırlar. Rayonda bəzi insanları yüzbaşı təyin ediblər. Həmin yüzbaşılar seçki günü hərəsi yüz nəfər gətirib, seçki qutusuna kağız atmalıdırlar. Əminən ki, prezidentin bunlardan xəbəri yoxdur və mənim etiraz səsimdən sonra həmin şəxslərin barəsində lazımi tədbirlər görüləcək. Bütün manelərə baxmayarq seçki təbliğatıma davam edəcəm, seçicilərimin etimadını layiqincə doğruldacam”.

Yazıda adı hallanan şəxslərin də mövqeyini öyrənməyə hazırıq.

❑ Xalidə GƏRAY

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

# Şəmkirdə iki uşaq anasını elektrik vurdu



**Şəmkir rayonunun Sabirkənd kəndində ölümlə nəticələnən bədbəxt hadisə baş verib. Kəpəz TV (Region TV) istinadən xəbər verir ki, kənd sakini 27 yaşlı Jalə Bayramova vanna otağında uşaqlarını çimizdirərkən ehtiyatsız davranıb və nəticədə onu elektrik cərəyanı vurub.**

Bayramova hadisə yerindəcə dünyasını dəyişib. Faktla bağlı Şəmkir Rayon Prokurorluğunda araşdırma aparılır.

Qeyd edək ki, mərhumun iki azyaşlı övladı var.

# Vağzaldakı müəmmalı ölüm yenidən araşdırılacaq

## Şikayətçi Lumu Kazımova ona hədə-qorxu gəlindiyini deyir

**Bakı Şəhər Prokurorluğu Nəsimi rayon Prokurorluğunun müstəntiqi Anar Abıyevin Mövsüm Kazımovun ölüm işi üzrə qəbul etdiyi qərarı ləğv edib. İş yenidən araşdırılması üçün istintaqa qaytarılıb. Yaxın günlərdə M.Kazımovun meyitinin ekshumasiya olunaraq təkrar məhkəmə tibbi ekspertizanın keçiriləcəyi də gözlənilir.**

Bu haqda redaksiyamıza mərhumun həyat yoldaşı Lumu Kazımova məlumat verib. Deyib ki, yoldaşının ölüm işi Baş Prokurorluqda nəzarətə götürülüb və işin araşdırlması müstəntiq Ramin Qocayevə həvalə olunub.

“28 fevral 2015-ci ildə həyat yoldaşım Mövsüm Kazımov Bakı Dəmir Yolu vağzalında yerləşən ”Ləman" kafesində öldürülüb. Bundan sonra onun ölümü ilə bağlı Nəsimi Rayon Prokurorluğunda çox səthi araşdırma aparıldı və 1 aprel 2015-ci il tarixdə cinayət işinə başlanılması rədd olundu. Bu qərar qeyri-obyektiv olduğuna görə müstəntiq Abıyev bizdən gizlədirdi. Baş Prokurorluğun müraciətlərimdən sonra qərarı mənə verdilər. Həyat yoldaşımın ölümünün səbəbkarı Eldar Əli Əşrəf oğlu Rəhimovdur. O, həyat yoldaşıma ticarət quracağını demişdi. Bu məqsədlə bizə məxsus olan Bakı şəhəri, Nəsimi rayonu, 3-cü mikrorayon, A.Musatafayev küçəsi 17 “a” ünvanında yerləşən 46 saylı, 3 otaqdan ibarət olan mənzili girov qoydu, mənzili Elçin Zamanovun adına keçirdi. Elçin Zamanovdan 30 min manat faizlə pul götürüb. Eldar Rəhimov yoldaşıma söz vermişdi ki, pulu 3 ay müddətinə qaytaracaq.

Sonradan E.Zamanov həmin mənzili banka girov qoyaraq pul götürüb və mənzili bankın iştirakı ilə satıb. Nəticədə mən və həyat yoldaşım yeganə yaşayış sahəmizdən məhrum olduq. Həyat yoldaşım haqqa nail olmaqdan ötrü dəfələrlə qeyd olunan şəxslərlə əlaqə saxlamışdı. Eldar Rəhimovdan mənzilini qaytarmağı tələb etmişdi. Eldar Rəhimov hər dəfə bizi aldadırdı. Deyirdi ki, Mərdəkan qəsəbəsində Dərya Dadaşov küçəsi 88 ünvanında mülki var. Həmin mülki 450 min manata satıb mənzili geri qaytaracaq. Lakin bu söhbət də günü-gündən uzanırdı. Artıq onun bu hərəkətlərinə həyat yoldaşım dözə bilmirdi. Sonuncu dəfə də Eldar Rəhimovla yoldaşım “Ləman” kafesində görüşüb ki, bu məsələyə son qoyulsun. Görüşən zaman həyat yoldaşımla Eldar Rəhimovun arasında mübahisə olub. Həmin vaxt baş verənlər mühafizə kamerası tərəfindən çəkilib. Lakin kamera görüntüləri saxtalaşdırılaraq tam variantda işə əlavə olunmayıb. Hər hansı bir araşdırma aparılmadan rədd qərarı qəbul olunmuşdu.

O bizim mənzili saxta alqı-satqı müqaviləsi ilə 82 min 500 manata satıb. Həmin puldan 40 min manatı özünün banka olan borcunun bağlanmasına sərf edib. Qalan pulu Eldar Rəhimova verib".

L.Kazımova deyir ki, şikayət etdiyinə görə hər 2 şəxs ona hədə-qorxu gəlməkdən də çəkinmirlər: “Nəsimi Rayon Polis İdarəsinin 19-cu polis bölməsində Eldar Rəhimovun dələduzluğu ilə bağlı araşdırma gedir. İşi təhqiqatçı Ruslan Sadıqov araşdırır. Eldarla Elçin mənə zəng edib hədə-qorxu gəlirlər”.

❑ E.HÜSEYNOV

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

YENİ MÜSAVAT
N 237 (6265) 26 oktyabr 2015






# Bu səhvlər dünya mediasının inciləridir

## Ölkələr arasında gərginlik yaradan, prezidentləri qəzəbləndirən, baş nazirləri kükrədən media xətaları...

**Son günlər ölkədə baş verən həbslərdən dolayı Azərbaycan mediası xəbər dənizində "boğulur". Amma bəzən şayiələrin xəbərə çevrilməsi də özünü göstərir. Eyni gündə bir hadisə ilə bağlı bir-birindən fərqli çıxarışlar, şərhlər... saysız-hesabsızdır. Və bu situasiyada media daha çox suçlanır. Medianın qeyri-peşəkarlığı, səhvlərinin çoxluğu oxucunu narahat edir. Əslindəsə media, xəbərçilik özü ilə paralel səhvləri də gətirir. Necə? "Yeni Müsavat" sizə dünya və yerli mediadakı ən məşhur səhvlərin bəzilərini xatırladır.**

Amerikalı publisist Kreyq Silvermen "Səhvlərə görə üzr istəyirik" adlı kitabı ilə uzun müddət jurnalistika aləmini silkələyib. Həmin kitab dünyanın nüfuzlu qəzetlərində zaman-zaman yer alan səhvlər, öz təbirimizcə desək, "ÇP"-lərə həsr olunub. Məlum olub ki, dünyaya jurnalistika dərsi keçən böyük qəzetlər bəzən elə gülməli səhvlərə imza atıblar ki...

Maraqlıdır ki, hər gün "New York Times" qəzetində "Korrektələr" adlı böyük bir hissə yer alır. Orada da qəzetin ötəngünkü sayında yer alan səhvlər, oxucuların iradları yerləşdirilir. Təbii ki, hər bir jurnalist üçün onun yazısı ilə bağlı hansısa təkzibin, dəqiqləşdirmənin ikinci səhifədə yer alması utancverici məqamdır. Amma söhbət qəzetin mənafeyindən gedirsə, jurnalistin hissləri arxa plana keçir. Çünki Amerikada oxucunun etibarını itirmək çox ciddi siqnaldır. Buna görə də qəzet rəhbərliyi əlindən gələni edir ki, bu, baş verməsin.

Amma örnəklər bununla bitmir. San Fransiskoda da MediaBugs adlı bir sayt yaradılıb. Bu da San Fransisko jurnalistlərinin səhvlərini aşkarlayaraq, onları əsəbləşdirmək məqsədi güdür. Layihənin məramı oxuculara ölkə qəzetlərində gördükləri səhvlər barədə sayta pullu məlumat verməkdən ibarətdir. Bu layihə isə media azadlığı ilə bağlı bir fondun 355 000 dollarlıq qrantının hesabına həyata keçirilir.

### Özbəkistan, yoxsa qırzbəkistan?

Keçək nümunələrə. ABŞ jurnalistinin yazısında yanlış tələffüz edilmiş Mərkəzi Asiya ölkəsinin adı internet trendinə çevrilərək çoxsaylı şərhlərə təkan verib. "New York Times" qəzetinin müxbiri Jon Branc alpinist Tommy Caldvelin 2000-ci ildə Pamirdə oğurlanması barədə yazarkən nəzərdə tutduğu Qırğızıstanın adını Qırzbəkistan (ingilis dilində - "Kyrzbekistan") kimi göstərib. Yanvarın 7-də dərc olunmuş məqalədəki səhvi tutan həm başqa nəşrlərin jurnalistləri, həm də ki, oxucular dostyana iradlarını bildiriblər.

"23 il əvvəl Sovet İttifaqının dağılması bir neçə yeni ölkənin yaranması ilə nəticələndi. Onlardan bir çoxunun adı "stan"la bitir. Məsələ kifayət qədər mürəkkəbdir və buna görə də bu kimi səhvlər olur", - deyə qəzet səhvlə bağlı istehzalı şərhində bildirib.

Nəticə olaraq qəzetin onlayn versiyasında çıxan məqalədəki səhv düzəldilib.

"Məqalənin əvvəlki variantında Tommy Caldveli oğurlayanları təqib edən qoşunların mənsub olduğu ölkənin adı düzgün göstərilməyib. Bu mövcud olmayan Qırzbəkistan yox Qırğızıstandır", - üzr istəyərkən səhvi düzəldən jurnalistlər bildiriblər.

Lakin düzəlişlər edilərkən uydurma dövlət internet məkanında artıq məşhurlaşıb və onunla bağlı çoxsaylı şərhlər yayılmağa başlayıb.

Olaydan sonra "Twitter"də #Kyrzbekistan haştaqı ilə minlərlə mesajlar paylaşılıb. Ölkənin ingilisdilli @kyrzbekistan hesabı yaradılıb.

Bloqçulardan biri Qırzbəkistanın sürətlə "ən populyar və çox müzakirə olunan" ölkəyə çevrildiyini yazıb.

"Belə ölkə yoxdu? Qırzbəkistanlılar bundan çox məyus ola bilərlər", - daha bir "Twitter" postunda deyilir.

İnternetdə Qırzbəkistan saytları yaradılıb və bu ölkəyə baş çəkmək istəyənlərə səyahətlə bağlı məsləhətlər təklif edilir.

Jon Branc isə "Twitter"-dəki müzakirələrə yarızarafat münasibət bildirərkən bu yaxınlarda Qırzbəkistanda olacağını yazıb.

Bəzi bloqçular ümid edir ki, internet müzakirələri Mərkəzi Asiya ölkələrinə marağı artıraraq adamları Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Tacikistana baş çəkməyə həvəsləndirə bilər.

### Azərbaycanla Rusiya arasında 18 milyard yanlışı

2014-cü ildə İqtisadi İnkişaf Nazirliyinin mətbuat xidməti Azərbaycanın Rusiyaya yaxın 5-7 ildə 18 milyard dollar investisiya yatıracağına dair yayılmış xəbərlərə təkzib verib. Nazirlikdən bildirildiyinə görə, iqtisadi inkişaf naziri Şahin Mustafayevin Bakıda səfərdə olan rusiyalı həmkarı Aleksey Ulyukayevlə görüşü zamanı 18 milyard dollar söhbəti olub. Ancaq bu rəqəm Azərbaycanın 2017-ci ilədək Türkiyəyə yatıracağı investisiyaların həcmini əks etdirirdi və Rusiyaya aidiyyəti yox idi. "Rusiyanın "RİA Novosti" agentliyinin görüşü izləyən rus əməkdaşı isə bunu Rusiyaya yatırılacaq investisiyalar kimi başa düşüb və xəbəri o cür yayıb. Əslində nazir dedi ki, Azərbaycan indiyədək Rusiyaya 1,8 milyard dollar investisiya yatırıb və gələcəkdə bu investisiyaların həcmi daha da arta bilər" - deyə nazirliyin mətbuat xidmətinin düzəlişində də bildirilir.

### Jurnalistin səhvi, Ərdoğanın təpkisi...

2015-ci ilin mayında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Sinan Erdem idman salonunda ticarətçilərlə görüşərkən jurnalist-aparıcı Orxan Karakurtun səhvi onu özündən çıxarıb. Görüşdən sonra illərdir Ərdoğanın tədbirlərinin aparıcısı olan Orxan Karakurt önəmli bir elan verəcəyini deyərək söz istəyib. Karakurt "Prezidentimizin rəhbərliyi ilə 30 mart şənbə günü..." demişdi ki, Ərdoğanın onun səhvini düzəldib və "30 may" deyə xəbərdarlıq edib. İkinci dəfə o, "30 may saat 17:30-da Yenikapı Meydanında möhtəşəm tədbir var" deyib. Bu dəfə də Ərdoğanın ona müdaxilə edib və "fəth tədbiri" deyə düzəliş edib. Aparıcı həyəcanla 3-cü dəfə də səhv edib - "652-ci Fəth tədbiri...". Ərdoğan başını yelləyərək bu dəfə də aparıcıya düzəliş edib. "562-ci". Lakin səs-küydən prezidentin nə dediyini eşitməyən Karakurt ona yaxınlaşaraq rəqəmi təsdiqlədib.

### Şəkillər necə qarışıb?

"Yahoo News" adlı internet portalı "Cundullah" terror təşkilatının lideri Riginin tutulma xəbərini verərkən, ona əlaqəsi olmayan bir fotoşəkil əlavə etməsindən sonra, ABŞ-ın milyonlarla tirajı olan məşhur "Vaşinqton Post" qəzeti də buna bənzər səhvlə Riginin fotoşəkili yerinə, Kadima Partiyasından olan israilli nazir Tzipi Livninin fotoşəkilini yerləşdirib və bunu dərc edib.

Maraqlı olan budur ki, dünən də, "Yahoo News" adlı internet saytı eyni xəbəri yayımlayarkən, Riginin fotoşəkilinin əvəzinə iranlı islahatçı və Nobel sülh mükafatı laureatı Şirin İbadinin fotoşəkilini qoymuşdu.

### Stiv Cobsu necə öldürdülər?

2008-ci ildə "Bloomberg" agentliyi Stiv Cobs barədə daha öncədə hazırlanan və öldüyü təqdirdə yayınlayacaqları nekroloqu səhvən yayıb. Apple yaradıcısının xərçəngdən əziyyət çəkdiyini bütün dünya bilsə də, bu xəbər ildırım sürəti ilə yayılıb. Cobs isə bunu təkzib edərkən Mark Tvendən sitat gətirib: "Mənim ölümüm barədə şayiələr böyüdülüb".

S.Cobs isə 2011-ci ildə dünyasını dəyişib.

### Əli Həsənovun dedikləri və viza çaş-başlığı...

Prezident Administrasiyası ictimai-siyasi şöbəsinin müdirinin Türkiyə ilə Azərbaycan arasındakı viza rejiminə dair dediklərinin təhrifi də yaddaqalan səhvlərdən olub. Azərbaycan Prezident Administrasiyası ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənovun Türkiyə ilə Azərbaycan arasında viza rejiminin ləğv olunmamasının səbəbləri barəsində "Today's Zaman" qəzetinə müsahibəsindəki bəzi fikirlər anlaşılmazlıq yaradıb. Həmin açıqlama "Azərbaycan İrandan çəkinib, Türkiyəyə yox dedi" başlığı ilə manşet yazısı kimi dərc edilib. Yazıda isə Ə.Həsənovun fikirlərinə istinad edilib.

Təbii ki, bu açıqlamada bir ölkənin rəsmi şəxsinin belə ifadələr işlətməsi inandırıcı görünmür. Ə.Həsənovun məsələ ilə bağlı APA-ya növbəti açıqlamasını, daha doğrusu, təkzibini oxuyanda məlum olur ki, ilk açıqlamada ciddi təhrifə yol verilən məqamlar olub.

### Amerikalı jurnalist Putini "Yeltsin" adlandırıb

Rusiya müdafiə naziri Sergey Şoyqu azərbaycanlı həmkarı ilə görüşündə Ermənistandakı 102 saylı rus hərbi bazasının komandanı Andrey Ruzinskinin Qarabağda müharibə ilə bağlı fikirlərinin "təhrif olunduğunu" deyib.

"Çox güman ki, bu, müsahibəni götürən jurnalistin səhvi olub" Oktyabrın 10-da "Krasnaya zvezda" qəzetinə müsahibəsində hərbi baza komandiri Andrey Ruzinski deyib ki, Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ üzərində yurisdiksiyanı güc yolu ilə bərpa etməyi qərara alarsa, hərbi baza silahlı münaqişəyə başlaya bilər.

Bir ay sonra, müdafiə naziri Zakir Həsənov ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşdə Ruzinskinin bəyanatına rəsmi səviyyədə izahat verilməsini istəyib.

Nazirlərin görüşündə, həm də Qəbələ RLS-in Azərbaycana təhvil-təslim işlərinin başa çatması müzakirə edilib.

"Qəbələ radiolokasiya stansiyasının təhvilinə dair bütün cari məsələlər həll olunub", Ria Novosti Agentliyi cənab Həsənovdan sitat gətirir.

Nazir deyib ki, stansiyanın təhvili praktiki olaraq baş tutub və orada bir problem yoxdur.

"Cari məsələlər demək olar ki, həll olunub", nazir əlavə edib.

Cənab Həsənov Rusiya və Azərbaycan arasında əməkdaşlıqla bağlı məsələlərin həll olunacağına ümid ifadə edib.

Amerikanın CNN kanalında xəbər aparıcısı canlı efirdə səhvən Rusiyanın prezidentini Boris Yeltsin adlandırıb. Teleaparıcı Rusiya prezidenti Vladimir Putinin BMT Baş Assambleyasında nitqinə yekun vurmasından sonra səhvə yol verib.

Lakin aparıcı öz səhvini tez başa düşərək tamaşaçılardan üzr istəyib. "20 il əvvələ qayıtdığıma görə məni bağışlayın", - deyə aparıcı zarafat edib.

Azərbaycanın ABŞ-dakı Səfirliyinin dərhal müdaxiləsindən sonra ölkənin The New York Times qəzetinin internet saytında hava proqnozu bölümündə Bakının Ermənistanın paytaxtı kimi göstərilməsi səhvi düzəldilib. Bu barədə Azərbaycanın ABŞ-dakı Səfirliyi məlumat verib. Qeyd edək ki, ABŞ-ın The New York Times qəzetinin rəsmi internet səhifəsinin hava proqnozu bölümündə Azərbaycanın paytaxtı Bakı şəhəri Ermənistanın paytaxtı kimi göstərilmişdi.

### Bizim səhvlər... naxışdır, naxış...

"Yeni Müsavat"ın tarixindəki məşhur "ÇP"-lərdən ən yaddaqalanı baş redaktor Rauf Arifoğlu ilə bağlı baş verib. 2000-ci ildə qəzetin 10-cu səhifəsində açıqlama verən R.Arifoğlunun şəkli əvəzinə Primakovun şəkli yerləşdirilib. Bir neçə min nüsxə çap olunandan sonra səhv aşkarlanıb və ən son anda şəkli dəyişdiriblər.

Bir neçə il öncə qəzetdə yer alan və hələ də əfsanəvi lətifə kimi yada düşən daha bir "ÇP" barədə. "Heydər Babayevin obyektlərinə əl qoyuldu" başlığı şrift çevrilməsi zamanı "Heydər Babayevin obyektlərinə ül qoğuldu" formasında dərc edilib.

"Azərbaycan" qəzetində isə ancaq orfoqrafik səhvlər yer alır. Qəzetin bir məqaləsinə görə uzun illər öncə Amerika səfirliyi nota verib.

"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev də fəaliyyətlərində səhvlərin az olduğunu dedi. Onun sözlərinə görə, ən yaddaqalanı 1994-cü ildə baş verib. Belə ki, həmin vaxt "Turan" Azərbaycanın işğal olunmuş ərazilərini, onların işğal olunduğu tarixi, habelə qaçqınların sayını özündə əks etdirən xəritə hazırlayıbmış: "Bu xəritə missiyalara, beynəlxalq təşkilatlara, ictimaiyyətə yayıldı. Həmin vaxt da Rəsul Quliyev Rusiyaya danışıqlara gedir və atəşkəs elan olunandan sonra qoşunların hansı xətlərdə olmasıyla bağlı müzakirələr aparılır. Orda qarşı tərəf bizim xəritəni çıxarıb göstərir ki, bu xəritəyə görə sizin qoşunlar filan yerdədir. Bakıya qayıdandan sonra Rəsul Quliyev parlamentin iclasında bu məsələni qaldırıb, baş prokurordan mənə qarşı cinayət işi qaldırmasını tələb etmişdi. Əsas gətirmişdi ki, guya mən dövlət əhəmiyyətli danışığı pozmuşam".

M.Əliyev bu xəritəyə görə prokurorluqda ifadə verdiyini xatırladı. Onun sözlərinə görə, informasiya agentliyi tərəfindən nəşr olunan xəritənin dövlətlərarası danışıqlarda predmet ola bilməyəcəyini prokurora da bildirməklə bu məsələ qapanıb.

"525-ci qəzet"dən də dedilər ki, fəaliyyətləri boyunca ciddi qalmaqala səbəb olacaq səhv etməyiblər. Məsələn, nə vaxtsa hansısa şəklin yeri boş gedib. Bəzənsə familiyası "ova", "yeva" ilə bitən xanım əməkdaşların soyadı kişi soyadı kimi gedib. Amma qəzetin ən yaddaqalan səhvlərindən biri Amerikanın Azərbaycandakı keçmiş səfiri Rino Harnişin Amerika prezidenti kimi təqdim olunması olub.

**Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

Son səhifə

N 237 (6265) 26 oktyabr 2015





## Facebookda yeni axtarış sistemi

Facebook sosial şəbəkəsi özünün axtarış sistemini yeniləyib. Yeni sistemlə sosial şəbəkə daxilində məzmunların axtarışı asanlaşır. Digər axtarış sistemlərindən fərqli olaraq, facebook sosial şəbəkəsi şəxsə yönəlik nəticələri təqdim edir. Yəni istifadəçilərin izlədikləri qaynaqlar xaricində axtarış nəticələri göstərilməyəcək. Tutaq ki, istifadəçi günün vacib bir hadisəsi haqqında axtarış edir. Bu zaman olayla bağlı izlədiyi səhifələrin, qrupların və dostlarının ən yeni, uyğun, maraq doğuran postlarını əldə edəcək. İstifadəçi özü də anında müzakirələrə qoşulub fikirlərini bölüşə bilər. Facebookun axtarış məsələləri üzrə mütəxəssisi Tom Stock deyir ki, gün ərzində bu sosial şəbəkədə 1.5 milyard axtarış aparılır və yeniləmədən sonra bu göstərici daha da artacaq. Facebookun daha sonra bu axtarış funksiyasından biznes məqsədilə yararlanacağı da gözlənilir. Hazırda bu yenilikdən sosial şəbəkəni ingilis dilində işlədənlər faydalana bilirlər. Yeni axtarış sistemindən yaxın zamanda digər dillərdə də istifadə etmək olacaq.

## Dünyanın ən zəngin adamı

Dünyanın ən zənginləri siyahısında 16 dəfə birinci yerə çıxan Bill Gates kreslosunu “Zara” geyim firma sahibi Amancio Orteqaya uduzub. Qalstuk taxmaqdan imtina edən ispan iş adamı əldə etdiyi 79,6 milyard dollarlıq sərvəti ilə “Forbes” jurnalının hazırladığı zənginlər siyahısında ilk sırada özünə yer tutub. Bill Gates uzun illərdən sonra ilk dəfə zənginlər siyahısında ikinci yerə düşüb. Bill Gates isə 78,1 milyon dollarlıq sərvəti ilə ikinci yerə düşüb. Siyahının üçüncü sırasında isə 64,4 milyarda dollarlıq sərvəti ilə Varren Buffet durur. 62,5 milyard dollar sərvəti olan Meksikalı Carlos Slim isə dördüncü yerdə durur.



## Öskürəyə qarşı xalq təbabəti

- Bal öskürəyə qarşı ən effektiv vasitədir. Hətta bir stəkan isti suda bir qaşıq balı qarışdırıb içsəniz, öskürəyiniz sakitləşəcək.
- Limon - sitrus meyvələri C vitamini ilə zəngindirlər və qədimdən öskürək və soyuqdəyməyə qarşı əla vasitə hesab olunurlar.
- Soğan - öskürək və soyuqdəymənin profilaktikası üçün ən çox istifadə olunan tərəvəzdir.
- Qırmızı turp - turp insan orqanizminə olduqca xeyirlidir. Bu öskürəyə qarşı ən qədim və sınanmış üsullardan biridir.
- Sarımsaq - öskürək zamanı dabanlarınızı sarımsaqla sürtməniz məsləhət görülür.
- Əzvay şirəsi - al və limon qarışığı ilə birlikdə soyuqdəyməni aradan götürə biləcək vasitələrdən biridir.
- Adaçayı - soyuqdəyməni aradan götürür, bəlğəm gətirici keyfiyyətə malikdir. Yaş öskürəkdə ən çox istifadə olunur.
- Evkalipt yağı - inqalyasiyada istifadə olunur. Nəfəs borularını açır, həm quru, həm də yaş öskürək zamanı istifadə oluna bilir.





## Mandarinin möcüzəvi faydaları

Qış mövsümünün meyvələrindən sayılan mandarinin (naringi) insan orqanizminə ciddi faydaları var. Mandarinin qabığında olan P vitamini keks və şirniyyatlar hazırlanarkən istifadə olunur, ona ləzzət və xoş qoxu verir, eyni zamanda xolesterolu və yüksək təzyiqi salmağa da köməkçi olur. Ürək və damar xəstəliklərinə qarşı qoruyucu olan mandarin, ömür boyu sağlamlığınızı təmin edir. Ayrıca olaraq narıngi damar sərtliyi və iflic xəstəliyində də faydalıdır. Damar sərtliyi olan hər kəs və əsasən orta yaş qrupuna aid olanların bu meyvəni bol-bol yeməsi vacibdir. Sinirləri sakitləşdirən mandarin eyni zamanda qripə qarşı da qoruyucu vasitə funksiyası yerinə yetirir. Axşam yeməyindən sonra yeyiləcək bir mandarin daha rahat yuxunu təmin edir. İmmunitet sistemini gücləndirən bu meyvəni eyni zamanda cem hazırlayarkən də istifadə edə bilərsiniz. Ayrıca qabıqlarından əldə edəcəyiniz qoxu sayəsində evinizi xoş ətirli edə bilərsiniz.






QOÇ - İlahi prinsiplərə xüsusi əhəmiyyət verin. Günahlarınızın yuyulması üçün dualar edin. Sevdiyiniz adamda özünüzə qarşı yalnız rəğbət yaratmağa çalışın. Uzaq səfərləri təxirə salın.



BUĞA - Ümumi passivliyinizi nəzərə alıb fəaliyyətə ara verin. Əsas enerjinizi bütünlüklə istirahətə və səyahətlərə həsr edin. Günün ikinci yarısında istənilən mübahisə və riskdən yayının.



ƏKİZLƏR - Hər mənada uğurlu bir təqvim yaşayacaqsınız. Sevdiyiniz adamlarla ümumi dil tapmağınız əsas işlərinizin gedişində müsbət çalarlar əmələ gətirəcək. Gecəni öz evinizdə keçirin.



XƏRÇƏNG - Saat 14-ə qədər münaqişəli məsələlərdən uzaq olmağa çalışın. Kiminsə özü yaratdığı problemi düzəltmək fikrinə düşməyin. Sonrakı saatları isə bütünlüklə əyləncələrə həsr edin.



ŞİR - Uğurlu gündür. Günün birinci yarısında qazanmaq, nahardan sonra isə xoş təsadüflərlə rastlaşmaq şansınız var. Yeni əlaqələrə ciddi və perspektivli yanaşın. Bu, yalnız xeyrinizə ola bilər.



QIZ - Yersiz qürrələnməyiniz, özünüzü tərifləməyiniz ünsiyyətdə olduğunuz adamlarda sizə qarşı ikrah yarada bilər. Səmimi və sadə olun. Axşama yaxın təzə xəbər eşidəcəksiniz.



TƏRƏZİ - Cərəyan edən proseslərə çılğın tərzdə yanaşmağınız heç bir irəliləyişə təkan verməyəcək. Odur ki, müdriklik göstərməyiniz tələb olunur. Yeni əməkdaşlığa ciddi tərzdə yanaşın.



ƏQRƏB - Bürcünüz başlayandan sanki qayğılarınız da artıb. Qarşınızda duran vəzifələrin öhdəsindən çətinliklə gəlməyiniz sizi səbrsiz edir. Bir az dözümlü olun. Ulduzlar varlanacağınızı bildirir.



OXATAN - Passiv bir gün yaşamalı olacaqsınız. Özündən müştəbehlik, hamıya yuxarıdan aşağı baxmaq kimi mənfi xüsusiyyətlərdən uzaq olun. Yeni işgüzar təklifləri rədd etməyin.



OĞLAQ - Maddi problemləri nəzərə almasaq, bu təqvimdən narazı qalmağınıza elə bir ciddi əsas yoxdur. Ulduzlar insanlara baxışlarınızı kökündən dəyişməyi tövsiyə edir. Əsəblərinizi qoruyun.



SUTÖKƏN - Ailə-sevgi münasibətlərində bəzi xoşagəlməzliklə rastlaşa bilərsiniz. Boş yerə hay-küy qaldırmayın. Hər şeydən əvvəl ətrafınızda müsbət aura, xoş mühit yaradın ki, qurtulasınız.



BALIQLAR - Hər hansı işdə təkbaşına addım atmaqdan vaz keçin. Əməkdaşlıq zəminində isə uğurlara yetişəcəksiniz. Saat 16-dan sonra perspektivi sual altında olan danışıqlardan imtina edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yaşıdlarından 8 dəfə tez yaşlanan qız...

Dünyada 8 milyondan bir insanda görülən xəstəliyin pəncəsinə düşən kiçik qız görənləri şoka salıb. Beş yaşlı qız normadan 8 dəfə daha surətlə yaşlanır. Lucy Parke adlı qızı dünyaya gəldikdən sonra ona Hutchinson Gilford Progeria Sindromu diaqnozu qoyulub. Xalq arasında isə xəstəliyin adı “erkən yaşlanma xəstəliyi”dir. 5 yaşlı qız nadir görülən xəstəliklə mübarizə aDapararkən normaldan 8 dəfə surətlə yaşlanır. 8 milyonda bir rast gəlinən xəstəlikdən əziyyət çəkən yalnız 100 adam qeydiyyata alınıb. Xəstəliyinin heç bir müalicəsi yoxdur. Qeyd edilən xəstələrin heç biri 13 ildən çox yaşaya bilməyib. Bu xəstələr ən çox infarkt və iflicə görə həyatlarını itirirlər. Lucy də son zamanlarda kökəlməyə başlayıb və saçı dayanmadan tökülür.



Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “E-Q” mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300